# DİNLƏRİN ORTAQ MİRASI



*Üç səmavi din üçün müqəddəs şəhər olan Qüds Fələstinin tarixi paytaxtı, hüquqi statusu da BMT tərəfindən müəyyənləşmiş toxunulmaz, sabit bir məkandır.*

*Son zamanlar müsəlmanların ilk qibləgahı olan Qüdsün İsrailin paytaxtı kimi tanınması fikri bölgədəki həssas durumu alovlandırmağa, dünya xalqları və dinlər arasındakı münasibətləri böyük təhlükəyə atır. Bu təxribat xarakterli düşünülməmiş fikir dünyada sülhü sarsıtmağa və günahsız insan qırğınlarına yönəlmiş addımdır.*

*Ümid edirik dünya ölkələri bu haqsızlığa qınamaqla ədalətli münasibət bildirərək həmin məkanı atəşə yuvarlanmadan qurtaracaqlar.*



# Məscid əl-Əqsa
# Hər 3 dinin müqəddəs məbədi



***Davudun tikdirdiyi, Süleymanın başa çatdırdığı, Məhəmməd Peyğəmbərin (s) meraca getdiyi müqəddəs məbəd.***

***Xəbər verdiyimiz kimi, Qüds şəhərində əl-Əqsa məscidi kompleksində İsrail polisi ilə fələstinli gənclər arasında toqquşma olub. Məscidə daxil olan İsrail polisi içəridə olan dindarları həbs edib. BBC-nin məlumatına görə, polis məsciddə gözyaşardıcı qazdan, rezin güllələrdən və səs bombalarından istifadə edib, onlara qarşı isə daş və fişənglərlə hücum olub.***

Qeyd edək ki, İsrailin əl-Əqsa məscidini müsəlmanlardan almaq cəhdi zaman-zaman qarşıdurmalara səbəb olur. Ötən ay isə İsrail hökuməti əl-Əqsa məscidi yanında sinaqoq tikiləcəyini elan edib. Bu isə müsəlmanların etirazına səbəb olub. Bu günlərdə İsraildə yəhudilərin müqəddəs Roş Haşana bayramı qeyd olunur.

Güman olunur ki, polisin məscidə hücumu yəhudilərin bayram münasibətilə məscidə daxil olmasına şərait yaratmaq məqsədi güdüb. Məlum olduğu kimi, müsəlmanlar üçün ilk qiblənin yerləşdiyi və İslam Peyğəmbərinin (s) meraca getdiyi məkan hesab olunan əl-Əqsa məscidi yəhudilər üçün də müqəddəs məkandır.

Qeyd edək ki, Məscid əl-Əqsa Quranda mübarək məkan adlandırılıb, müsəlman aləmi üçün Məkkədən sonra ikinci müqəddəs məkandır. Məscidin adı Məhəmməd Peyğəmbərin (s) sağlığında Məkkəyə ən uzaq yerdə olması səbəbindən Məscid əl-Əqsa adlandırılıb. Ancaq bu müqəddəs məkanın tarixi İslamiyyətdən çox-çox qədimə gedir.

Beyt əl-Maqdis və ya Beytül Müqəddəs adlanan məbəd Quranda adı keçən həzrət Davud Peyğəmbərin zamanında inşa olunub. Ancaq rəvayətə görə, Həzrət Davud bu məbədin divarları bir adam boyu hündürlükdə olanda vəfat edib. Tikintini və 12 məhəllədən ibarət olan Qüds şəhərini bütövlükdə inşa etdirib başa çatdırmaq Davudun oğlu Həzrət Süleymana nəsib olur. Məscid əl-Əqsanın tikintisində qızıl, gümüş, yaqut və başqa zinət əşyalarından istifadə olunub, tikinti 7 ilə başa gəlib.

Hədislərə görə, ilk vaxtlarda məbədin adı Beyt əl-Maqdis kimi qeyd olunurmuş. Ancaq sonradan Quranda da nəql olunan Məscid əl-Əqsa adından istifadə olunmağa başlayır. Rəvayətə görə, Həzrət Süleyman nəsildən-nəslə keçən və içərisində Həzrət Musadan yadigar qalan qədim Tövrat nüsxəsinin olduğu Əhd sandığını (Tabutu Səkinə) Məscid əl-Əqsaya qoyub. Lakin sonrakı illərdə Qüdsə hücum edərək işğal edən Assuriya hökmdarı Buhtunnasr (İbranicə Nabuchodonosor-Nabukednazar) məscidi qarət edərək Babilə aparıb.

Sonradan Məscid əl-Əqsa bərpa olunsa da, eramızın 70-ci ilində Qüdsü işğal edən Roma İmperiyası orduları şəhəri və eləcə də Məscid əl-Əqsanı yandırıb dağıdırlar. Bu təqvim eyni zamanda Məscid əl-Əqsanın yəhudiliklə əlaqəsinin sona çatdığı dövr hesab olunur.

Bizim eranın 123-cü ilində Bizans İmperiyası Məscid əl-Əqsanı təmir edib. Məscid əl-Əqsanın yenidən parlaması isə İslamiyyətlə başlayıb. İslamın ilk illərində Həzrət Məhəmmədin (s) Meracı hadisəsi baş verir. Bu hadisə zamanı İslam Peyğəmbəri Məscid əl-Həramdan (Məkkədəki Kəbə) Məscid əl-Əqsaya gəlir və burda namaz qılır.

Bu dövrdə Məscid əl-Əqsa həm də müsəlmanların qibləsi, yəni namazda üzlərini çevirib ibadət etdikləri istiqamət idi. Yalnız Mədinəyə hicrətdən 16 ay sonra Allahdan gələn vəhylə müsəlmanların qibləsinin Məkkə (Kəbə) olduğu bəyan olunur. Ancaq əl-Əqsa müsəlmanların ilk qibləsi olaraq müqəddəs məkan olaraq tanınır.

638-ci ildə ikinci xəlifə Ömər Suriyaya səfəri zamanı Məscid əl-Əqsanı ziyarət edib. Məhz xəlifənin tapşırığı ilə məscid yenidən bərpa olunub və ibadətə açılıb. Eyni zamanda İslamın təkallahlı dinlərə olan hörmətinin bir nümunəsi olaraq əl-Əqsa məscidində həmin vaxt yəhudilərin də ibadət etməsi üçün icazə verilib. Həmçinin Qüdsdəki xristian kilsələri də ibadətə açılıb. Sonradan Əməvi xilafəti dönəmində əl-Əqsa yaxınlığında Qubbət əl-Səhra məscidi tikilir.

1099-cu ildə Qüdsü işğal edən Avropa səlibçi ordusu şəhəri tamamilə qarət edib yandırır. Bu zaman xristian səlibçilər xristinalıq tarixində mühüm yeri olan Məscid əl-Əqsanı da qarət edib yandırırlar. Daha sonra səlibçilərin Qüdsdəki hakimiyyəti dönəmində Məscid əl-Əqsa kilsəyə çevrilir. Ancaq xristianların Qüdsdə hakimiyyəti 88 il davam edir.

1187-ci ildə Səlahəddin Əyyubinin rəhbərlik etdiyi

müsəlman orduları Qüdsü azad edir. əl-Əqsa kilsə heykəllərindən təmizlənərək yenidən məscid kimi fəaliyyət göstərməyə başlayır. Qeyd edək ki, Məscid əl-Əqsa bir ibadət ocağı, müqəddəs məkan olmaqla yanaşı həm də İslam təhsil mərkəzi rolunu oynayıb. Əməvi, Abbasi, eləcə də Əyyubilər və Məmlüklər zamanında məscid həm ibadət, həm də dini təhsil mərkəzi kimi fəaliyyətini davam etdirib.

1517-ci ildə Yaxın Şərqin Osmanlı İmperiyasının ərazilərinə qatılması ilə Məscid Əqsanın uzun bir sabitlik dönəmi başlayır. Osmanlılar İslamda böyük yeri olan Məscid əl-Əqsaya xüsusi diqqət göstəriblər, daim təmir və bərpası, xidmət edilməsini təmin ediblər.

1947-ci il noyabrın 29-da BMT Fələstin ərazilərində ərəb və yəhudi (İsrail və Fələstin) dövlətlərinin yaradılması ilə bağlı qərar qəbul edir. Qərara görə, Qüds şəhəri beynəlxalq statuslu ərazi olmalı idi. Ancaq yəhudilər 1948-ci il mayın 15-də dövlət elan edir və fələstinlilər dövlət yarada bilmir.

1948-ci ildə baş verən savaşda İsrail Qüdsün qərb hissəsini, 1967-ci il 6 günlük savaşda isə bütövlükdə şəhəri işğal edən yəhudilər orda öz qaydalarını qoymağa başlayır. 1969-cu ildə avstraliyalı bir fanatik protestant Məscid əl-Əqsanı yandırır. Ancaq bəzi iddialara görə, məscidin yandırılmasını İsrail xüsusi xidmət orqanları təşkil edir. Bu hadisə müsəlman dünyasında böyük etirazlara səbəb olur.

Qeyd edək ki, yəhudi və müsəlmanlarla yanaşı, Qüds, eləcə də Məscid əl-Əqsa xristianlar üçün də müqəddəs məkan mahiyyətindədir. Belə ki, Həzrət İsanın bu torpaqlarda dünyaya göz açması, yaşaması, bu torpaqlarda baş verib. Qüds xristianlığın başlanğıc yeri kimi xristianlar üçün müqəddəs dəyərə malikdir.

Sonrakı illərdə - 1980 və 1982-ci illərdə iki dəfə əl-Əqsa məscidinin uçurdulması cəhdləri olub. Eyni zamanda məscid Fələstin davasının simvoluna çevrilib. İsrail hökumətinin müsəlmanları məsciddən çıxarması cəhdi hər dəfə güclü müqavimətə rast gəlib. 1990-cı ildə İsrail hökumət qüvvələrinin məscidə ibadət zamanı hücumu nəticəsində 30 nəfər ölüb, 800 nəfər isə yaralanıb.

Müşahidəçilərə görə, İsrail hökuməti fələstin və müsəlman müqavimətinin simvoluna çevrilmiş məscidi müsəlmanlardan təmizləmək, sırf "yəhudiləşdirmək" üçün müsəlmanları ordan çıxarmaq, ətrafda yeni təmir-tikinti aparmağa çalışır. Bu isə öz növbəsində müsəlmanların sərt etirazına səbəb olur. Hər il dünyanın müxtəlif ölkələrində min illər boyunca hər 3 dinin müqəddəs ibadət ocağı olmuş məscidin müdafiəsi ilə bağlı aksiyalar keçirilir.

Mənbə:**Kənan Rövşənoğlu** (Musavat.com)

# Ən böyük və ən üstün İlahi vəzifə

## ATA VƏ ANAYA YAXŞILIQ ETMƏKDİR



***Bizim varlığımız Allahdan olsa da, lakin dünyaya gəlmə səbəbimiz ata və analarımızdandır. Biz bu iki əzizin həyat ağaclarının meyvələriyik. İnsan unutqan bir varlıqdır və çox tez unudur ki, bir zamanlar aciz və gücsüz bir körpə idi, valideynləri onu böyük əziyyət və zəhmətlə boya-başa çatdırıblar. Əgər onların bu zəhmətinə təşəkkür etməzsə, bundan pis naşükürlük olmaz.***

İnsanlıq və əxlaq tələb edir ki, bu iki əziz insanın həmişə xidmətində olaq. Həyatlarında onlara yaxşılıq edək və ölən zaman sədəqə və ehsanı əsirgəməyək. Bizim valideynlərimizə olan rəftarımızı gələcək nəsillər də bizə qarşı edəcəklər.

Valideynin haqqını vermək mümkünsüz bir işdir. Ancaq insan əlindən gələni etməlidir ki, onları şad etsin və özündən razı salsın.

Valideynin ali məqamı ilə hədislərdə daha yaxından tanış olaq:

Əmirəl-möminin (ə) buyurur: "Ən böyük və ən üstün İlahi vəzifə - ata və anaya yaxşılıq etməkdir".

İmam Sadiq (ə) buyurur: "Ən üstün işlər bunlardan ibarətdir:

1. Vaxtında qılınan namaz.
2. Ata və anaya yaxşılıq etmək.
3. Allah yolunda cihad etmək".

Həzrət Peyğəmbər (s) buyurur: "Hər bir yaxşı əməl sahibi olan övlad mehribanlıqla ata və anasına baxarsa, hər bir baxışın qarşılığında ona kamil və qəbul olmuş bir həccin savabı verilər".

İmam Rza (ə) buyurur: "Üç şey üç şeylə birlikdə yerinə yetməlidir:

1. Namaza zəkatla birlikdə əmr edilmişdir, ona görə də o kəs ki, namaz qılar və zəkat verməz – namazı qəbul olmaz.

2. Özünə şükür etməyi ata və anaya şükür etməklə birlikdə əmr etmişdir, ona görə də hər kim ata və anasına təşəkkür etməzsə – Allaha şükür etməz.

3. İlahi təqvaya sileyi-rəhmlə birlikdə əmr edilmişdir, ona görə də hər kim sileyi-rəhm etməzsə, İlahi təqvanı da yerinə yetirməmiş olar".

İmam Sadiq (ə) buyurur: "Ata və anaya yaxşılıq etmək – Allah bəndəsinin layiqli mərifətinin nişanəsidir. Çünki heç bir ibadət, müsəlmanın Allaha xatir ata və anasının hörmətinə riayət etməsindən daha tez Allahın razılığına çatmaz".

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim Allahın ata və ana barəsində əmr etdiklərinə itaət edər, behiştin iki qapısı üzünə açılar. Əgər Allahın əmrini onların biri barəsində yerinə yetirərsə, bir qapı açılar".

Həzrət Peyğəmbər (s) buyurur: "O bəndə ki, Allahın və ata-anasının mütisi olar – Qiyamət günü ən üstün yerdədir".

Həzrət Rəsuli-Əkrəm (s) buyurur: "O kəs ki, ata və anasını razı salar – Allahı razı salmış olar. O kəs ki, ata və anasını qəzəbləndirər – Allahı qəzəbləndirmiş olar".

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim ömrünün uzun və ruzisinin çox olmasını istəyirsə, ata və anasına qarşı yaxşılıq etsin və sileyi-rəhmi yerinə yetirsin".

# TƏKAMÜL BİNASININ BİRİNCİ MƏRTƏBƏSİ

**Bəşər, öz tarixi boyu bir sıra qlobal və fundamental suallarla qarşılaşır. Dünyanın harasında olmasından asılı olmayaraq, insan övladını bir sıra qlobal suallar maraqlandırıb. Bu qlobal sualları ümumiləşdirdikdə, onlardan dörd mühüm vücudi sualın çıxdığı məlum olur - "haradan gəlmişik?", "haradayıq?", "hara gedirik?", "nə etməli?". Bəhsimiz bu sualların dördüncüsü olan "nə etməli?" ilə bağlıdır. Kamilliyə çatmaq üçün nə etməliyik? Kamillik yolunun yolçusu hansı işləri görməlidir? Quranın nəzərində kamil insan kimdir?**



### Allaha sevginin təzahürü

Allah Təala insanı varlıqlar arasında digərlərindən seçir. Rəbbimiz insana yaranmışların əşrəfi adını verir. İnsana elə bir istedadlar verilib ki, kamilliyin ən yüksək məqamına çatmaq qabiliyyətini əldə edə bilər. Əgər insan ona verilən istedadlardan düzgün istifadə etməzsə, bu zaman aşağıların ən aşağısı səviyyəsində yer alar. Bu baxımdan, insan varlıqların ən aşağı məqamına çatmaq təhlükəsi ilə də üz-üzədir.

Deməli, insan dedikdə bir varlıq nəzərdə tutulur ki, bu varlıq digərlərindən olduqca fərqli istedadlara malikdir. Bu varlığın Rəbbi qarşısında, özü qarşısında, ailəsi qarşısında, ictima qarşısında bir sıra vəzifələri var. İnsan bu vəzifələrini icra etdiyini, Rəbbini sevdiyini, özünə, ailəsinə, ətrafında olanlara qarşı tələbkar olduğunu iddia edə bilər. Lakin, tək bu iddia kifayət etmir. İnsanın Rəbbinə olan sevgisinin təzahürləri olmalıdır. Qurani-Kərimin "Ali-İmran" surəsində Allah Təala Peyğəmbərə (s) buyurur ki, insanlara desin: "De, əgər siz həqiqətən Allahı sevirsinizsə, mənə tabe olun". Həzrət Peyğəmbərə (s) tabe olmaq nə deməkdir? Peyğəmbərə (s) tabe olmaq o deməkdir ki, onun gətirdiyi Quranın buyuruşlarına əməl edəsən.

İnsanın davranışları onun batininin güzgüsüdür

### Qurani-Kərim bizim necə olmağımızı istəyir?

"Furqan" surəsinin 63-cü ayəsində Allah Təala kamil insanın xüsusiyyətlərinə aid bir önəmli məqama toxunur. Bu ayədən başlayaraq, Allah Təala insanın kamilliyə doğru getməsi üçün bir çox xüsusiyyət və şərtləri çox aydın şəkildə bəndələrinə çatdırır. "Rəhmanın bəndələri o kəslərdir ki, yer üzərində təvazökarlıqla yeriyərlər".

Çox əlamətdar haldır ki, dünyada insanlar iki qrupa bölünürlər. Birinci qrup insanlar öz yollarını seçiblər - haradan gəldiklərini, harada olduqlarını, haraya gedəcəklərini bilirlər, Allahın buyurduğu kamillik yolunu tutublar və bu yolla gedirlər. Bir qrup insan da praqmatizmlə bu yola gəlib çıxıblar. Yəni, həmin insanlar nələrisə təcrübədən keçirərək, bu yolun həqiqət olduğuna gəlib çıxıblar. Bu ayə ilə bağlı da həmin məsələni söyləmək olar. Bu gün müasir psixologiya elmi gəlib belə bir nəticəyə çıxıb ki, insanın yerişindən, davranışından asılı olaraq, o adam haqqında fikir söyləmək olar. Yəni belə deyil ki, insanın davranışı bir başqa cür olsun, onun batini isə bir başqa cür. Qurani-Kərim də bizlərə təkamül yolunu gedərkən, ilk növbədə təvazö halında yeriməyi buyurur. Əgər bu məsələ Qurani-Kərimdə öz əksini tapmasaydı, bəlkə də insan bunun çox xırda bir məsələ olduğunu zənn edərdi.

Allah Təala birbaşa şəkildə bu xüsusiyyəti zikr edərək, kamil insanın xüsusiyyətlərinin bəyanına başlayır.

### Təkamül yolunun birinci mərtəbəsi

İnsan həddi-büluğa çatdığı, elədiyinin məsuliyyətini daşımağa başladığı vaxtdan ya təkamülə doğru hərəkət edir, ya da tənəzzülə. Təkamülə doğru gedən insan varlıqların inkişaf mərhələlərini keçərək, ən ali inkişaf mərhələsinə - Allahın yaxın bəndəsi mərtəbəsinə gəlib çıxacaq. Bu, elə bir məqamdır ki, həmin məqama çatmış bir insanın bütün xüsusiyyətləri, bütün keyfiyyətləri Allahvari olur. Həmin insan Allaha ən yaxın mərtəbədə olur. Bu məqam hətta mələklərdən də yuxarıdır. Çünki mələklərin iradəsi yoxdur. Onların təbiəti bu cür proqramlaşdırılıb ki, onlar iradələrindən irəli gələrək deyil, təbiətlərindən irəli gələrək, günah etmirlər.

İnsan isə belə bir ixtiyara malikdir ki, günah edə də bilər, etməyə də. İnsan Allahın dediklərini edərək, təkamülə də gedə bilər, bunları etməyərək, tənəzzülə də gedə bilər. Biz bu iki yolun arasındayıq. Çox maraqlıdır ki, Allah Taala insan üçün bu iki yolun ayrıcında təkamülə getmək üçün ilkin şərt kimi təvazökarlığı göstərir. Deməli, təkamül yoluna başlayan bütün insanlar öz yollarına təvazökarlıqdan başlamalıdır. Tənəzzülün də başlanğıc nöqtəsi təkəbbürdür. Buna misal olaraq, şeytanı (lən) göstərmək olar. O böyüklükdə məqamından bir təkəbbür ilə ən aşağı səviyyəyə düşür.

### Təkəbbür artdıqca, ağıl bir o qədər azalır

İmam Cəfər Sadiq (ə) buyurur: "Həmin miqdarda ki, insanın vücuduna təkəbbür daxil olar, o miqdarda insanın ağlı və düşüncəsi azalır". Bu məsələnin üzərində çox böyük eksperimentlər, təcrübələr aparmaq olar. Bəziləri düşünə bilərlər ki, təkəbbürün ağıla nə aidiyyəti var? Bəlli olur ki, təkəbbürün ağıla birbaşa aidiyyatı var.

Bir şəxsin təkəbbürü niyə artır? Çünki həmin şəxs haradan gəldiyini unudur. Bir şəxsin əgər hər zaman yadında olsa ki, onu elə bir təmənnasız Vücud yaradıb ki, yalnız O, ehtiyacsızdır - həmin kəs heç bir zaman təkəbbür etməz. Özü də insanı elə bir haldan kamil insan şəklinə salıb ki, o, nütfə halında idi. Belə olan halda insan kimin qarşısında təkəbbürlülük edir? Deməli, insanın ağılı azalıb ki, təkəbbürü artıb.

### Rəbb qarşısında təvazökarlıq

Təvazökarlıq və təkəbbürlülük deyildikdə, nə nəzərdə tutulur? Bunların təzahürləri özlərini nədə göstərir? Təvazökarlığın müəyyən təzahürləri, müəyyən növləri var. Təvazökarlığın ən yüksək zirvədə dayanan növü - insanın öz Rəbbi qarşısındakı təvazökarlığıdır. Bunun müqabili isə - insanın Allah qarşısında təkəbbürlülük etməsidir. Yəni insan öz Rəbbi qarşısında təvazökarlıq da edə bilər, təkəbbürlülük də. Əgər insan Allah qarşısında təvazökarlıq göstərərsə, sözsüz ki, təkamülə çatar. Allah qarşısında təkəbbürlülük göstərən isə sözsüz ki, özünü uçuruma aparar. Allah qarşısında təvazökarlığın nümayişi - Allahın vacib buyurduğu əməlləri ən gözəl şəkildə yerinə yetirməkdədir.

### Həzrət Peyğəmbərə (s) münasibətdə təvazökarlıq

**Təvazökarlığın ikinci növü** - Allahın Peyğəmbərinə (s) münasibətdə təvazökarlıq göstərməkdir. Yəni Allahın Peyğəmbərinə (s) münasibətdə təvazökarlıq göstərmək - o Həzrətin (s) gətirdiyi risalətə sözsüz əməl etməkdir.

Bu baxımdan, tarixdə iki növ insanlar olub. Birinci qrup insanlar - o insanlardır ki, həm Allaha münasibətdə təvazökarlıq göstəriblər, həm də Həzrət Peyğəmbərə (s) münasibətdə. İkinci növ insanlar o insanlardır ki, Allaha münasibətdə təvazökarlıq göstərsələr də, onun peyğəmbərlərinə (ə) münasibətdə təkəbbürlülük ediblər. Bu cür insanlar günümüzdə də var. Onlar guya ancaq Allaha, tək Allaha iman gətirdiklərini bildirir. Əslində isə mahiyyətinə nəzər saldıqda məlum olur ki, bu cür insanlar hətta Rəbblərinə qarşı da təkəbbürlülük nümayiş etdirir. Çünki, Allahın göndərdiyi və buyuruşlarına əməl etməyi insanlar üçün vacib təhəddüd olaraq müəyyən etdiyi Rəsuli-Əkrəmə (s) itaətsizlik edən, təbii ki, Uca Allahın itaətindən çıxmış olur.

### Ən böyük həkimin müalicə yolu ilə gedən xəstə

**Üçüncü növ təvazökarlıq** - Allahın qanunlarına münasibətdə təvazökarlıqdır. Yəni Allah Təala bir məsələni vacib buyurubsa, Allah Taala bir məsələnin halal olduğunu buyurubsa - Onun qanunlarına qarşı təvazökarlıq göstərən insan bunlara sözsüz əməl edəcək. Allahın qanunlarına qarşı təkəbbürlülük göstərən insan - Onun buyurduqlarının tam ziddinə hərəkət edir, onun qoyduğu qanunlara məhəl vermir. Allahın qanunlarına münasibətdə təvazökarlıq göstərən insan bilir ki, Allah Taala həkimdir. Təvazökarlıq göstərən insan - o insandır ki, ən böyük Həkimin - həm hikmət mənbəyi mənasında, həm də təbib mənasında - buyurduqlarına əməl edər, sağalmağının yolunun yalnız Onun göstərdiyi müalicə yollarında olduğunu dərk edər.

**Təvazökarlığın dördüncü növü** - yaradılışın qanunlarına, təbiət qanunlarına münasibətdə təvazökarlıqdır.

Bu, elə bir qanundur ki, uşaq doğulduğu vaxtlardan onlara münasibətdə düzgün tərbiyə olunmasa, müəyyən yaşdan sonra valideynlərinin üzünə qayıdar, fəsad törədər.

Bu, bir qanundur ki, insanların şəxsiyyətləri nə qədər azalarsa, onlarda nə qədər qorxaqlıq hissi artarsa - onlar sabahı gün daha çox zülm altında yaşayarlar.

Bu, bir qanundur ki, insan içki içər, məst olar. Ağlasığmaz məsələlərə qol qoyar.

Bu qanunları başa düşən insan onlara münasibətdə təvazökarlıq göstərər. Bu qanunlara münasibətdə təkəbbürlülük edən insan isə onlara etinasız yanaşar və onların uçurumlarına yuvarlanar.

#### Təkəbbürlü insana münasibətdə təvazökarlıq etmək olarmı?

Təvazökarlığın beşinci növü - insanlara qarşı münasibətdə təvazökarlıqdır. Burada məsələyə münasibətdə iki tərəf mövcuddur. Birinci tərəf bundan ibarətdir ki, əgər müsəlmana zülm edilsə də, yaxşılıq edilsə də, onunla təvazökarlıqla davranılsa da, təkəbbürlülüklə davranılsa da - müsəlmanın vəzifəsidir ki, onların hamısı isə təvazökarlıqla davransın. Lakin əslində bu cür olmamalıdır. İslamın buyuruşu budur ki, səninlə təvazökarlıqla davranan insanla ondan ikiqat daha artıq təvazökarlıqla davran.

İslamın təkəbbürlü insanlarla münasibətdə isə sözü belədir ki, belə insanlarla ünsiyyət saxlayan zaman onlara böyük əhəmiyyət, böyük diqqət verilməsin. Onlara münasibətdə laqeydlik onları kiçildər. Təkəbbürlü insan ilə münasibətdə təvazökarlıq etmək - həmin şəxsə zülm etməkdir. Onunla təvazökarlıq etmək, onun təkəbbürünü daha da artırar. Lakin ona xüsusi əhəmiyyət verilməməsi iki mühüm nəticəyə gətirər. Birinci tərəfdən, həmin şəxsin müalicəsinə yardım edər, ikinci tərəfdən isə təkəbbürlü insanın qarşısında müsəlman özünü alçatmaz. İnsanın öz şəxsiyyətinə hörmət etməsi - kamilliyə çatması üçün birinci yoldur. Bu baxımdan, öz şəxsiyyətinə hörmət edən insan təkəbbürlü insan qarşısında təvazökarlıq etməz.

### Dünən özü cahil olan şəxs...

Mübarək "Furqan" surəsinin 63-cü ayəsinin ikinci hissəsində buyurulur: "Allah bəndələri o kəslərdir ki, cahillərlə qarşılaşdıqları zaman (cahillər onlara söz atdıqları zaman) onlarla yumşaq, gözəl rəftar edərlər". Bunun da elə yuxarıda göstərilən Allah bəndələrinə münasibətdə təvazökarlığa böyük aidiyyatı var. İnsan özü Allahın dininə iman gətirir, bir müddət ibadət edir və artıq bundan sonra ibadət etməyənlərə qarşı təkəbbürlülük etməyə başlayır. İnsan dünənə qədər özünün nə olduğunu unutmağa başlayır. Elə buna görədir ki, insanlar dinə gəlmir. Bizim özümüzü bu yola gətirən amil, möminlərin bizimlə gözəl rəftar etmələri olub. Biz özümüz bu dində kamil bir şey görüb gəlmişik. İndi bizim də borcumuzdur ki, hidayət olunmayanlarla xoş, həlim rəftar edək, onlara İslamı sevdirə bilək. Başa düşmək lazımdır ki, cahil insan bir çox məsələlərdən xəbərsizdir, bir sıra nöqtələrə riayət etmir. Əgər biz Allah Taalanın göstərdiyi formada davranarıqsa, bəlkə onların da islah olunmalarına vəsilə olarıq.

**Allahım, bizlərə bütün davranışlarımızda təvazökarlığa riayət etməyi nəsib et!**

Allahım, Sənə münasibətdə, Sənin Peyğəmbərinə (s), Sənin qanunlarına, yaradılışın qanunlarına, insanlara münasibətdə təvazökarlıqla davranmağı, təkəbbürdən uzaq olmağı bizə nəsib et! Amin!

İlqar İbrahimoğlu



# HZ. MUHƏMMƏDİN (S) ƏXLAQI



**Mərhəmətli, rəhmli Allahın adı ilə! İslam Peyğəmbəri, həzrət Adəmdən (ə) həzrət İsaya (ə) qədər bütün Peyğəmbərlərin fəzilətlərinə malik olmasıyla yanaşı özünəməxsus xüsusiyyətlərə malik idi. Əxlaqi səciyyələr və insani dəyərlər o həzrətin yaraşığı idi! Allah-taala Qurani-kərimdə Peyğəmbərləri bir neçə sifətlə mədh etmişdir. İslam Peyğəmbəri (s) barəsində isə onun bəzi üstün sifətlərini vurğulayaraq belə buyurmuşdur: "Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!"(1)**

İmam Hüseyn (ə) buyurur:" Atam Əmirəl-mömininindən Peyğəmbərin əxlaqı barəsində soruşdum, buyurdu: Peyğəmbər, ətrafındakılarla münasibətdə daim gülərüz və mülayim idi. Heç vaxt qəzəbli, daşürəkli, kobud, yalançı, nəzakətsiz danışan, eyb axtaran və eyb açan deyildi. Heç kəs ondan naümid olmadı və hər kəs onun evinə getdikdə ümidlə qayıdardı. Mübahisə etmək, çox danışmaq və ona aid olmayan işə qarışmağı sevməzdi. Heç kimi danlamaz, gizli eyblərini axtarmaz və acı danışmazdı. Elə əzəmətə yiyələnmiş idi ki, danışarkən camaat tərpənmədən, sakit onu dinləyərdilər. Onu tanımayan yad adamlar qəzəblə danışdıqda səbr



edərdi. Səhabələrinə, ehtiyaclı adamların ehtiyaclarını təmin etmələrini deyərdi. Heç vaxt başqasının sözünü kəsməzdi və..."(2)

Peyğəmbər (s) buyurur: "Mən əxlaqi dəyərləri və fəzilətləri kamilləşdirmək üçün peyğəmbərliyə seçilmişəm" (3)

Qurani-kərimdə Peyğəmbərin bəzi əxlaqi sifətlərini mədh edən ayələr var. Bu ayələrin bir qismini qeyd edirik: 1. Mülayim rəftar: "(Ya Rəsulum!) Allahın mərhəməti səbəbinə sən onlarla (döyüşdən qaçıb sonra yanına qayıdanlarla) yumşaq rəftar etdin. Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər. Artıq sən onları əfv et, onlar üçün (Allahdan) bağışlanmaq dilə, işdə onlarla məsləhətləş, qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən Allah (Ona) təvəkkül edənləri sevər!"(4)

2. Mərhəmətli: "Sizə özünüzdən bir Peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərlə şəfqətli, mərhəmətlidir!"(5)

3. Hamını səbrlə dinləyən və möminlərə inanandır: "(Münafiqlər içində) Peyğəmbəri incidib: "O (hamını dinləyən, hər sözü eşidib inanan) bir qulaqdır",- deyənlər də var. De: "O qulaq sizin üçün bir nemətdir. Allaha da inanır, möminlərə də. O sizdən iman gətirənlər üçün rəhmətdir. Allahın Rəsuluna əzab verənləri isə şiddətli bir əzab gözləyir!"(6)

4. Ürək yandıran və başqalarının dərdinə şərik olandır: "(Ya Rəsulum!) Yoxsa (kafirlər) bu Qurana inanmasalar, (səndən üz döndərib getdiklərinə görə) arxalarınca təəssüflənib özünü həlak edəcəksən?!"(7)

"(Ya Rəsulum! Məkkə müşrikləri) İman gətirməyəcəklər deyə, bəlkə, özünü həlakmı edəcəksən?! Əgər istəsək, göydən onlara bir ayə (dəlil) göndərərik, onlar da ona (səssiz-səmirsiz) boyun əyib durarlar."(8)

5. Möminlərlə təvazökar idi: "Sənə tabe olan möminləri qanadın altına al! (Onlarla yumşaq davran, nəzakətlə rəftar et, köməklərinə çat!)"(9) Allah-taala belə bir əxlaqa yiyələnən insanla, möminləri xüsusi tərzdə davranmağı əmr edir. Nümunə olaraq bəzi ayələrə işarə edirik: "Peyğəmbəri çağırmağı öz aranızda bir-birinizi çağırmağınızla eyni tutmayın! (Peyğəmbəri özünüz bir-birinizi çağırdığınız kimi çağırmayın. Ona "Muhəmməd, nə deyirsən?" yox, "Bəli! Buyur, ey Allahın elçisi, ey Allahın peyğəmbəri!" – deyə cavab verin. Və ya Peyğəmbərin duasını öz duanız kimi hesab etməyin. Onun duası, sizinkilərdən fərqli olaraq, Allah dərgahında mütləq qəbul olunar). Həqiqətən, Allah sizlərdən (xütbə zamanı məsciddən) xəlvət sovuşub aradan çıxanları

bilir. Onun (Allahın, yaxud Peyğəmbərin) əmrinə qarşı çıxanlar başlarına gələcək bir bəladan, yaxud düçar olacaqları şiddətli bir əzabdan həzər etsinlər!"(10)

"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar."(11)

Başqa ayədə Peyğəmbərin hüzurunda ədəblə rəftar etməyi təqva əlaməti sayaraq buyurur: "Həqiqətən, Allahın Peyğəmbəri yanında astadan danışanlar (səslərini asta çıxardanlar) o kimsələrdir ki, Allah onların ürəklərini təqva üçün imtahana çəkmişdir (möminliyə layiq etmişdir). Onları (günahlardan) bağışlanma və böyük mükafat (Cənnət) gözləyir!"(12)

Əlbəttə İslam Peyğəmbəri həzrət Muhəmmədin (s) əxlaqını işarə etdiklərimizlə xülasələşdirmək olmaz. Lakin bu kiçik yazıda o həzrətin əxlaqına aid Quran ayələrini nəzərdən keçirdik. Buna baxmayaraq o həzrət, Allahın qüdrətilə, heç bir kəsi öldürmədən və qan tökmədən Məkkə şəhərini fəth etdikdən sonra dövründə yaşayan təəssübkeş müşriklər və münafiqlər intiqam qəsdiylə hər an xoşagəlməz arzularını həyata keçirmək istəyirdilər. Təəssüflər olsun ki, bəzən öz məqsədlərinə çatmaq üçün müxtəlif yollara əl atırdılar. Məsələn, Peyğəmbərin ünvanına sehrbaz, dəli, qulaq və sair kimi nalayiq ifadələr deməklə, daş vurub mübarək dişini sındırmaqla və hətta bəzi vaxtlar, fürsət olduqda terror planlarıyla ona və əhli-beytinə qarşı olan kin-küdurətlərini dəfələrlə üzə çıxarmışlar.

Qeydlər:

1- Qələm, 4-cü ayə. 2- Məanil-əxbar, səh: 83, (xülasə). 3- Biharul-ənvar, c: 16, səh: 287. 4- Ali-İmran, 159-cu ayə. 5- Tövbə, 128-ci ayə. 6- Tövbə, 61-ci ayə. 7- Kəhf, 6-cı ayə. 8- Şüəra, 3-4-cü ayələr 9- Şüəra, 215-ci ayə 10- Nur, 63-cü ayə. 11- Hucurat, 2-ci ayə. 12- Hucurat, 3-cü ayə

Hazırladı: Ə. Şəhriyar

# Niyə seyidlərin adlarının əvvəlinə "mir" əlavə edilir?




Hazırda dünyada on milyonlarla seyid yaşayır. Bunlardan bəzisi İmam Həsənin (a) nəslindəndir və "şərif" adlandırılır, digər qismi isə İmam Hüseynin (a) və onun (ə) məsum övladlarının nəslindəndir və "seyid" adlandırılırlar

Yəni onlara adlarını çəkməzdən əvvəl nəsəblərinə ehtiram əlaməti kimi "Şərif" və ya "Seyid" - deyə müraciət olunur. Lakin bəzi ölkələrdə, məsələn, Hindistan, Pakistan, Türkiyə, o cümlədən bizim Azərbaycanda yaşayan bir çox seyidlərin adlarına "Mir" prefiksi əlavə olunur. Məsələn, Mirəli, Mircavad və s. Bunun kökü haradan gəlir?

Məlum olur ki, "mir" ərəb dilindəki "əmir" sözündən götürülüb və mənası "başçı", "rəhbər", "əmr sahibi" və s. deməkdir. "Əmir" titulu Peyğəmbər (s) nəslinin nümayəndələrinin adlarına 11-13-cü əsrlərdən etibarən əlavə edilməyə başlayıb. Bu yolla bu mübarək nəsildən olmayanlar seyidlərə öz ehtiramlarını bildirmək istəyirdilər.

Sonradan söz ixtisarlanaraq, "mir" halını aldı və birbaşa adın əvvəlinə artırılmağa başladı. Məsələn, Seyyid Mirəbulfəth Gürgani (əllamə) və ya Seyyid Mirəli ibn Şəhab Həmədani (zamanın məşhur arifi) və s.

Səfəvi dönəmində isə xüsusilə hörmətli seyidlərə hətta "Mir Miran", yəni "əmirlərin əmiri" deyə müraciət olunurdu.

Peyğəmbərin (s) mübarək nəslinə sevgi və ehtiram dünyanın dörd bir yerində bu gün də yaşamaqdadır. Allah cəmi seyidlərə bu nəcib irsi layiqincə daşımağı nəsib eləsin.

(Mənbə: "Titles of Sayyeds" // Al- Sayyid Sadiq Al- Hossaini Al- Eshkevari) /deyerler.org/

# İSLAMDA VƏHDƏT PRİNSİPİNİ İZAH EDƏN İMAM (Ə) KƏLAMI

**"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da (Allaha qarşı hörmət və ehtiramı) bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər". (Ənam, 108).**




Birlik, bir-birinə bağlılıq mənasında olan vəhdət anlayışı bütün ideoloji məktəblərin, ictimai münasibətləri izləyən fəalların fərdləri dəvət etdiyi möhkəm bir tərəfdaşlıqdır. İslam dini də hərtərəfli bir din olaraq fərdin və cəmiyyətin islahını nəzərə alaraq vəhdətə önəm verir və müsəlmanları vəhdəti qorumaqda diqqətli olmağa çağırır. Qurani Kərim vəhdətin pozulduğu halda hətta dinin təhlükədə olduğuna işarə edərək buyurur:

Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və(firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! (Ali-İmran-103).

(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə olub dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. (Allah) sonra (qiyamətdə) onlara nə etdiklərini bildirəcəkdir! (Ənam-159).

Hətta Qurani Kərim müsəlmanların bütün fikir ayrılıqlarına baxmayaraq vəhdətin qorunmasına o qədər əhəmiyyət verir ki, bu vəhdəti hidayətin bir parçası adlandırır. Ali-İmran surəsindən qeyd etdiyimiz yuxarıdakı ayənin sonunda buyurulur:

Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, bəlkə haqq yola yönəlmiş olasınız! (hidayət tapdınız) (Ali-İmran-103).

Vəhdət olmaq üçün, bir olmaq üçün öncə niyyətlərin bir olması lazımdır. Hər kəsin niyyəti Allah rizası və hidayətdirsə vəhdət bu zaman baş tutar. Yox hər kəsin niyyətinin arxasında özü durursa, hər kəs hadisələrin gedişatını özünə, öz mənafeyinə tərəf çəkmək istəyər. Necə ki, əsirlər boyu bu cür nifaqlardan istifadə edərək müsəlmanlar arasında təfriqə və düşmənçiliklər salıblar. Niyyəti xalis olmayan zəif iradəli və zəif düşüncəli insanlar da bu kimi təbliğat və düşmənçiliklərə aldanaraq digər müsəlmanlara qarşı iftiraçı və böhtançı mövqeyində olublar.



İmam Rza (ə) niyyətinin arxasında özü olanların bu növ həssas hiyləsinə toxunaraq buyurub:

"Ey İbn Əbi Məhmud! Bizim düşmənlərimiz bizim haqqımızda üç növ yalan hədislər yayırlar: 1). "Ğuluv" – (imamları İlahiləşdirmək);

2). "Təqsir" – (İmamları (ə) onları layiq olduqları məqamdan aşağı səviyyədə göstərmək);

3). "Məsalib"- Bizim adımızdan düşmənlərimiz (başqa məzhəblərin rəisləri) haqqında "məsalib" (söyüş, lənət) yayan hədislər;

Camaat bizim (Əhli-Beyt İmamları) haqqımızda "ğuluv" eşitdikləri zaman tərəfdarlarımızı təkfir edəcəklər. Və onların bizi "rəbb" bildiklərini iddia edəcəklər.

Bizim haqqımızda "təqsir" hədislərini eşitdikdə buna inanacaqlar (və bizim (Əhli-Beyt) həqiqətən də layiq olduğumuz məqamı danacaqlar).

İnsanlar eşidəndə ki, biz (Əhli-Beyt İmamları) düşmənlərimiz haqqında söyüş və pis sözlər demişik, onlar da bizim adımızı çəkərək söyəcəklər və haqqımızda pis sözlər deyəcəklər. Həqiqətdə isə Allah-Taala buyurmuşdur ki, "Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da (Allaha qarşı hörmət və ehtiram) bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər". (Ənam, 108).

Şeyx Səduq, "Uyunu Əxbarir-Riza (ə)", 1/304/ bölmə: 28/hədis: 63).

Bu gün müsəlmanlar düşmənlərin müxtəlif məkirli hiylələri ilə və çətin imtahanlarla üz-üzədirlər. Bu hiylələrdən biri də məzhəb böyüklərinə atılan iftiralardır ki, yuxarıda buna toxunduq. Bu iftiraların əsası Əhli-Beytlə (ə) düşmənçilikdə sərhəd tanımayan Əməvilər tərəfindən qoyulmuşdur. Niyyəti özü olanlar da bundan istifadə edir, müxtəlif təbliğat vasitələri ilə bunu təbliğ edir, hətta dövrümüzdə bu barədə cild-cild kitablar və verlişlər təsis edərək insanları aldadırlar. Hətta Əhli-Beyt (ə) davamçılarının əllərində tam başqa bir Quranın olduğunu belə iddia edirlər. Nəticədə ümumi müsəlmanlar bunun əziyyətini çəkir.

*Yaşar Nuriyev*



# Vəhdət, mübarizə və şəhadətlə başa çatan ömür: *Seyid Cəmaləddin Əfqani*

**Həzrət Məhəmməd (s) peyğəmbərin doğum günü ilə bağlı iki fərqli nəzəriyyə mövcuddur. Bu fikirlərdən biri peyğəmbərin rəbiuləvvəl ayının 12-si, digəri isə 17-də doğulduğunu bildirir.**

**Amma buna baxmayaraq, islam alimləri və müctəhidləri bu iki günün təsadüf etdiyi həftəni müsəlmanların "Vəhdət və Birlik Həftəsi" kimi qeyd edir.**

**Vəhdət həftəsi deyiləndə İslam dünyasının tanınmış alimlərindən olan Seyid Cəmaləddin Əsədəbadi və ya Əfqani yada düşür. Bu şəxsin həyatı barədə qısa məlumat və onun şiə-sünni vəhdəti mövzusundakı fikirlərini sizlərə çatdırmaq istəyirik.**

Seyyid Cəmaləddin Əsədabadi 1254-cü il şaban ayında (miladi 1 noyabr 1838-ci ildə) atasının dini rəhbərliyini öhdəsinə götürdüyü Hüseyni seyyidlər yaşayan Həmədanın Əsədabad şəhərində nəcib və şərafətli bir ailədə dünyaya göz açıb.

Beş yaşında Quran oxumağı öyrənən Seyid Cəmaləddin uşaqlıq illərində ərəb ədəbiyyatı və o dövrdə uşaqlara tədris olunan "müqəddimət" adlı təhsil dövrünü müvəffəqiyyətlə başa vurur. Seyidin ailəsi o dövrdə qəbilələr arasında baş verən etnik mübahisələr və qarşıdurmalar səbəbilə Qəzvinə köçmək məcburiyyətində qalır. Kiçik yaşda olmasına baxmayaraq Qəzvində yenidən təhsilini davam etdirən Seyid Cəmaləddin qısa müddət ərzində fiqh, ərəb ədəbiyyatı, məntiq, üsul və başqa elmi sahələrdə yüksək dərəcəyə yüksəlir. Hicri 1266-cı ildə (1850 m.) Tehrana yollanan Seyid Cəmaləddin tanınmış mərceyi təqlid alim olan Seyid Məhəmməd Sadiq Təbatabai Həmədaninin dərslərində iştirak etməyə başlayır və bir müddət sonra ustadın diqqətini özünə çəkməyi bacarır. Çox qısa zamanda elmi dərəcəyə yüksələn Seyid Cəmaləddin, eyni zamanda Tehranın tanınmış simalarından biri halına gəlir.

Seyid Cəmaləddinin atası oğlundakı elmi zəkanın və qabiliyyətin güclü olduğunu bildiyi üçün onu öz ustadı olan Şeyx Mürtəza Ənsarinin yanına, İraqın Nəcəf şəhərində yerləşən islam elmləri mərkəzinə (elmi hövzə) təhsil almağa göndərir. Dörd il ərzində ustadı Şeyx Mürtəza Ənsaridən üsul, şəriət hökmləri, fiqh, hədis, kəlam, məntiq, tibb, riyaziyyat və astronomiya elmlərini öyrənən Seyid Cəmaləddin dördüncü ilin sonunda ictihad dərəcəsinə yüksəlir və ustadından ictihad icazəsi barədə sənəd alır. Seyidin bu müvəfəqiyyəti Nəcəf, Kərbəla, Samirra və Kazımeyn kimi şəhərlərdə xalq arasında yayılmağa başlayır. Lakin, Seyid Cəmaləddinin müvəfəqiyyətini gözü götürməyən şəxslərin ucbatından o, Nəcəf şəhərini tərk etmək məcburiyyətində qalır.

## Hindistan və Əfqanıstan səfərləri

Hələ 16 yaşı olan Seyid Cəmaləddin ailəsindən ayrılmaq məcburiyyətində qalır və etibar edilən alimlərdən biri ilə dəniz yolu vasitəsilə Hindistanın Bombey şəhərinə gedir. Bombey daha çox turistlərin axışdığı və ticarətin inkişaf etdiyi şəhərlərdən biri olduğu üçün Seyid Cəmaləddin təhsilini davam etdirmək məqsədi ilə Hindistanın Kəlküt şəhərinə köçür. İki il ərzində bu şəhərdə qalan Seyid Cəmaləddin bir çox tanınmış ictimai xadim və alimlərlə tanış olur.

Bu dövrdə Hindistan xalqının yaşayış tərzi onların ingilis müstəmləkəçiliyi altında olduğunu göstərirdi. İngilis hökuməti Hindistanın təbii sərvətlərini istismar edirdi. Bu haqsızlığın qarşısında susmayan Seyid Cəmaləddin ilk siyasi fəaliyyətlərinə Hindistanda başlayır. Gecə-gündüz yorulmadan səy göstərən Seyid Cəmaləddin düşmənin gücünü araşdıraraq, şərq insanının hansı zəif nöqtələrindən istifadə edildiyini təsbit edir.

Bu dövrdə Əfqanıstan da İrandan ayrılmış və müstəqil dövlət qurmağı qarşısına məqsəd qoymuşdu. Seyid Cəmaləddin Əfqanıstana səfər edərək, əfqan xalqını ingilislərin hiyləgirliyindən və düşmənçilik siyasətlərindən xəbərdar edir.

Hicri 1273-cü ildə (1857 m.) böyük Həcc ziyarətini yerinə yetirmək məqsədi ilə Seyid Cəmaləddin Əsədəbadi Hindistandan ayrılaraq yola çıxır. Hicri 1275-ci ilin (1859 m.) sonlarında Məkkə, Mədinə oradan İordaniya, Şam (Dəməşq), Homs, Hələb, Mosul, Nəcəf və ən axırda doğulduğu yer olan, İranın Həmədan şəhərinə gəlir. Bu yerlərdə Seyid Cəmaləddin müsəlmanların ümumi vəziyyətini araşdırır. Seyid Cəmaləddin İrandakı qarışıq siyasi vəziyyət səbəbi ilə Xorasandan Herata, oradan da Kabula gedir.

Əfqanıstanda beş-altı il qalan Seyid Cəmaləddin, bu zaman ərzində boş dayanmayaraq bir çox ictimai sahədə müxtəlif fəaliyyətlər icra edir, əfqan siyasətçilərini və





idarəçilərini ingilislərin pərdə arxasındakı çirkli siyasi planlarından xəbərdar edir.

### Seyid Cəmaləddinin Osmanlı İmperiyasının sütunu sayılan Misirə səfəri

Seyid Cəmaləddin, hicri 1285-ci ildə (1868 m.) Misirə gedir və əl-Əzhər universitetində dərs deməyə başlayır. Seyidin sahib olduğu gözəl əxlaq və güclü elm, yüzlərlə tələbənin ətrafına toplanmasına səbəb olur. Amma bu vəziyyəti görən Misir hökuməti 40 gündən çox səbr edə bilmir və Seyidin ölkədən çıxarılmasına qərar verir. Misirdən ayrılan Seyid Osmanlı İmperiyasının paytaxtı olan İstanbula gəlir.

Seyidin Türkiyəyə gəlişindən xəbərdar olan Osmanlı hökmdarı Sultan Əbdüləziz dövrün tanınmış alimlərindən olan Əli Paşa və Fuat Paşanı Seyid Cəmaləddin Əfqanini qarşılamaq üçün göndərir.

Seyid Cəmaləddin, burada da çox qala bilmir və müxtəlif bəhanələr irəli sürülərək Misirə geri göndərilir.

Təkrar Misirə gedən Seyid Misirdə Riyaz paşayla görüşərək orada bir neçə il yaşayır və bu fürsəti yaxşı qiymətləndirir, evində dərslər tədris edərək yenidən ətrafına yüzlərlə tələbə yığır. Seyid Misirdə olduğu bir neçə il ərzində ciddi işlər görür. Qəzetlərə verdiyi məqalələrlə bir tərəfdən ölkə daxilindəki satqınları ifşa edir, digər tərəfdən də ingilislər kimi xarici düşmənlərlə mübarizə aparır.

Hicri 1296-cı ildə (1879 m.) yenidən Misirdən çıxarılan Seyid bu dəfə İrana göndərilir və Misirdəki əmlakı olan kitabxanası və evi İngilis Maliyyə Nazirliyi tərəfindən müsadirə edilir.

Seyid Cəmaləddin öz şagirdi Əbu Turab Arif Əfəndi ilə birlikdə etdiyi səfərində dəniz yolu ilə Ciddə və Məkkəyə gedərək əhəmiyyətli siyasi, elmi şəxsiyyətlərlə görüşür. Daha sonra təkrar Hindistana gedərək mübarizəsinə qoyduğu yerdən davam etməyə başlayır. Amma bu dəfə, artıq, yalnız xarici düşmənlərlə deyil, onların ölkə daxilindəki Seyid Əhməd Xan kimi əlaltıları ilə mübarizə aparmaq məcburiyyətində qalır. Hindistanın Heydərabad şəhərinə sürgün edilərək, ev dustağı edilən Seyid Cəmaləddin burada da boş dayanmayaraq kəskin qələmiylə kitablar yazmağa başlayır və bir tərəfdən də "Ürvə" adlı gizli bir qrup quraraq Məhəmməd İqbal, Şövkət Ali və Məhəmməd Əli Cinnah kimi cəsur, əhəmiyyətli şəxsiyyətlər yetişdirir. Lakin, çox keçmir ki, Seyid Cəmaləddin Əfqani fəaliyyətləri səbəbi ilə yenidən Hindistandan çıxarılır.

Seyyid Cəmaləddin Əsədabadi hicri 1300-ci ildə (1883 m.) Hindistandan çıxarıldıqdan sonra ilk səfərini Londona edir və burada olduğu müddət ərzində elmi-mədəni işlərinə də ara vermədən davam edir. Bir müddət sonra isə Londonu tərk edərək Parisə yerləşir.

Seyyid Cəmaləddin, artıq, tanınmış və güclü bir şəxs sayılırdı. Qərb onu elmi və ictimai sahədə apardığı mübarizələrlə ziyalı bir islahatçı kimi tanıyırdı.

Seyidin buradakı əhəmiyyətli fəaliyyətlərini aşağıdakılardır:

1- "Urvətul Vusqa" jurnalını hazırlayıb yayımlayaraq islam düşmənlərinin gerçək üzünü ortaya çıxarır;

2-Ernest Runa kimi məşhur Fransız və İngilis elm adamları ilə görüşərək İslami mövzularda elmi mübahisələr həyata keçirir;

### Vətənə qayıdış

Seyid Cəmaləddin Əsədabadi Parisdən sonra Ərəbistanın əl-Qətif bölgəsinə gedir. Lakin, İran şahı Nəsirəddinin israrçı dəvətindən sonra hicri 1304-ci ildə (1886 m.) Qətifi tərk edərək Tehrana gedir.

Bu dəvət və təkidlər də çox davam etmir və nəhayət, şahın ətrafındakı satılmış din adamları Seyidin təkrar İrandan çıxarılmasına səbəb olurlar.

Seyid Cəmaləddin həmin il, hicri 1304-cü ildə Rusiyaya gedir və Rusiyada qaldığı iki il ərzində, Rusiyanın ingilislərə olan düşmənçiliyindən faydalanaraq Rusiya mətbuatı vasitəsilə ingilislər əleyhinə təbliğatlar aparmağa başlayır. Seyidin bu müvəffəqiyyətini görən rus hökuməti ondan Rusiyadakı müsəlmanların Şeyxül-islam vəzifəsini boynuna götürməsini istəyir. Lakin, rus hökumətinin bu istəyini qəbul etməyən Seyid belə bir cavab verir: "Mən bütün dünya müsəlmanlarının müdafiəçisiyəm."

Avropada keçirilən tədbirlərə qatılmaq üçün Rusiyaya, oradan da Parisə gedən Nəsirəddin Şah getdiyi hər yerdə Seyidin fəaliyyətləri və xidmətlərilə qarşılaşır və heyrətə gəlir. Bundan sonra Nəsirəddin Şah Almaniyanın Münih şəhərində Seyid Cəmaləddinlə görüşür. Görüş zamanı şah Seyiddən üzr istəyir və Seyidin yenidən Tehrana dönməsini xahiş edir. Vətəninin və xalqının mənfəətini düşünən Seyid şahın bu istəyini qəbul edir və hicri 1307-ci ildə (1889

m.) Tehrana qayıdır. Lakin, ingilislərin hiylə və oyunları nəticəsində altı aydan sonra yenidən ölkədən xaric edilir.

**Vəfatı**

Seyyid Cəmaləddin Əsədabadi Tehrandan çıxarıldıqdan sonra İraqın Bəsrə şəhərinə gedir. Bəsrədə bir müddət qaldıqdan sonra Londona səfər edən Seyid Cəmaləddin, Londonda İngilis müstəmləkəçiliyi və qərb zehniyyəti əleyhinə məqalələr və məktublar yazaraq, İslam alimləri, elm adamları və qəbilə rəislərini müstəmləkəçilərə qarşı mübarizəyə səsləyir. Amma bu fəaliyyətləri öz mənfəətləri üçün böyük təhlükə olaraq qəbul edən Böyük Britaniya hökuməti Seyidin fəaliyyətlərinə böyük məhdudiyyətlər tətbiq edir.




Bu dövrdə isə Osmanlı hökmdarı Ədülhəmid Seyidə bir məktub yazaraq onu İstanbula dəvət edir. İllərdir reallaşdırmaq istədiyi islami birlik və bərabərliyi təmin etmək məqsədiylə Seyid Cəmaləddin, hicri 1310-ci ildə (1892 m.) İstanbula gedir.

İstanbula gələn kimi, dövrün qabaqcıl islam alimlərinə məktublar yazaraq onların da fikrini bu sahəyə yönəldən Seyid Cəmaləddin Əsədabadi qısa bir müddət ərzində İslami Birlik cəbhəsini qurur və müsəlmanların itirdiyi nüfuzunu təkrar geri qazandırmağa çalışır. Bu hədəfini reallaşdırmaq üçün təxminən dörd il səy göstərir. Seyidin bu fəaliyyətlərini görən Sultan Əbdülhəmid mövqe və səltənətinin təhlükədə olduğunu düşünərək Seyid Cəmaləddini həbs etdirir.

Seyid Cəmaləddin hicri 1314-ci ildə (1897 m.) polis tərəfindən nəzarət altında saxlanıldığı vaxt vəfat edir və İstanbuldakı "Şeyxlər" qəbristanlığında dəfn edilir.

**Seyid Cəmaləddin Əfqaninin nəzərində şiə və sünni vəhdəti**

Seyid Cəmaləddin Əsədabadi ingilislərə və digər düşmənlərə qarşı mübarizəni islami vəhdətdə görürdü. O, şiə və sünni müsəlmanların vəhdətindən sonra düşmənlərlə mübarizə aparmağın daha effektiv olacağına inanırdı. Seyid Cəmaləddin Əsədəbadi şiə və sünni ayrıseçkiliyinin əhəmiyyətsiz olduğunu bildirirdi. Əsədəbadinin bu barədəki fikirləri belədir:

"Peyğəmbərin (s) Əhli-beyti (ə) adına müxtəlif dövr və zamanlarda bir çox insanlar və qruplar zühur etdi. Qulatlar kimi bəziləri doğru yoldan azdı. Bunlar Əli ibni Əbi Talibin (ə) Allah olduğunu müdafiə edirdilər. Bir çoxları Əhlibeytə (ə) qarşı məhəbbətdə həddini aşdı. Bu iki qrup da "Biz əhli-beytdən (ə) iki qrup həlak olmuşdur. Həddindən artıq sevənlər və xəyanət edən düşmən" ifadəsini müdafiə edənlərin hökmünün çərçivəsinə daxildir.

Qulatlar, artıq, keçmiş zamanda qalıb. Artıq, bu dövrdə çox az sayda bu cür insanlar yaşayır. Bütün bunların ortaya çıxmasına ümmətin cahilliyi və məmləkət sərhədlərini genişləndirməyə tamah edən hökmdarların axmaqlığı səbəb olmuşdur.

Sünni hökmdarlar qəribə vahimələrlə və Əhli-beyt şiələri ilə əhli-sünnət davamçılarını bir birinə qırdırır. Halbuki, hər iki dəstə də Qurana və Məhəmmədin (s) peyğəmbərliyinə inanırlar.

Müaviyəyə qarşı müharibə məsələsində imam Əlinin (ə) üstün tutulub dəstəklənməsi məsələsinə baxsaq, bunun o zaman faydalı olduğunu və ya haqqın ortaya çıxarılaraq batilin yox edilməsi məqsədi daşıdığını qəbul etsək belə, bizcə bu gün bu ifadənin davam etməsi keçmiş bir millətlə birlikdə dövrü keçmiş bu məsələyə ilişib qalmaq deməkdir. Bu isə zərərdən və islam birliyi bağlarının parçalanmasından başqa bir nəticəyə səbəb olmayacaq.

Bu gün ərəb olan-olmayan əhli-sünnə ittifaq edib Əli ibni Əbu Talibin(ə) xilafətə Əbu-Bəkrdən daha layiq olduğunu söyləsə və qəbul etsə nəyisə tərəqqi etdirəcəkmi? Ya da şiənin vəziyyəti düzələcəkmi?

Yaxud, şiə əhli-sünnəyə qatılıb "Əbu Bəkirin xilafət məqamına İmam Əlidən əvvəl gətirilməsi daha doğrudur" desə, bu sünni müsəlmanlarının inkişafına səbəb olacaqmı? Bu onları içlərində olduqları zillət və alçaqlıqdan çəkib qurtaracaq və cəmiyyət strukturlarını yıxılmaqdan qoruyacaqmı?

Müsəlmanların bu qəflətdən oyanmaları, ölüm gəlmədən bu ölüm yuxusundan qalxmalarının zamanı daha gəlmədimi?

Ey millət! And olsun ki, möminlərin əmiri Əli ibni Əbu Talib, ümumiyyətlə, əsl şiə, heç bir dünyəvi fəaliyyəti bacara bilmədiyi bir dövrdə qalxıb əhli-sünnətlə vuruşmaz, ya da sırf Əbu-Bəkri üstün tutmaları səbəbiylə sünnilərdən ayrılmağa heç vaxt razı olmaz.

interaztv.com

# XOŞBƏXT HƏYATIN SİRRİ: DAHİDƏN 7 DƏRS

**Biz yaşamaq sənəti barədə Lev Tolstoyun "Hərb və sülh" əsərindən çox şey öyrənə bilərik. Hələ nəzərə alaq ki, Tolstoyun həyatında təkəbbür və yelbeyinlik, seksual qısqanclıq və mürəkkəb ailə münasibətləri də olub. Lakin Roman Krznaric yazır ki, bütün bunlara baxmayaraq, bizim ustad romançıdan öyrənə biləcəyimiz çox həyat dərsləri var.**



1828-ci ildə doğulmuş və 1910-cu ildə vəfat etmiş Tolstoy öz malikanəsi və yüzlərlə təhkimlisi olan rus aristokrat ailəsindən çıxmışdı. Gənc qrafın erkən gəncliyi gur, yüngül əxlaqlı və zorakı olmuşdu. O yazırdı:

"Mən müharibələrdə adam öldürür və ya adam öldürmək üçün onları duelə çağırırdım. Qumarda uduzur, kəndlilərin əməyini istismar edir, onlara cəzalar verir, avara həyatı yaşayır və adamları aldadırdım. Beləcə on il yaşamışdım"...

Lakin o, tədricən özünü onu məhv edən, avara həyat tərzindən xilas etdi, zadəgan irsinin inanclarından yaxa qurtardı və radikal, qeyri-adi dünyagörüşü əldə edərək həmsiniflərini mat qoydu. Yaxşı, bəs, görəsən, onun bu şəxsi səyahəti bizə də öz həyat fəlsəfəmiz barədə təkrar düşünməkdə necə kömək edə bilər?

### 1. Düşüncənizi açıq saxlayın

Tolstoyun ən böyük istedadlarından biri də onun yeni təcrübələr əsasında öz düşüncəsini dəyişmək bacarığı və istəyi idi. 1850-ci illərdə Krım müharibəsində gördüyü qanlı qətliam onu ömürlük pasifistə çevirmişdi. 1857-ci ildə Parisdə gilyotinlə edamı seyr etmiş yazıçı kəsilib aşağıdakı qutuya düşən başın guppultusunu heç vaxt unuda bilməmişdi. O dövlət və onun qanunlarının qatı opponentinə çevrilmişdi. O, inanmağa başlamışdı ki, hökumətlər nəinki qəddardırlar, üstəlik, onlar həm də varlı və qüdrətlilərin maraqlarına xidmət edirlər. "Dövlət qəsddir – yazırdı Tolstoy bir dostuna, – odur ki, mən heç yerdə heç bir hökumətə qulluq etmərəm". Əslində, Tolstoy anarxist olmağın yoluna düşmüşdü. Sağ olsaydı, o, bizi içində böyüdüyümüz təməl inancları və ehkamları sual etməyə ürəkləndirərdi.

### 2. Hüsnrəğbətli olun

Tolstoy özünü ondan çox fərqli yaşayan insanların yerinə qoymaq bacarığı ilə heyrətamiz hüsnrəğbət nümayiş etdirə bilmişdi. 1860-cı illərdə o, nəinki kəndli geyiminə keçmişdi, hətta təhkimçilikdən yenicə azad olmuş kəndlilərlə birlikdə öz malikanəsində işləməyə, tarla şumlamağa, kəndli evlərini öz əli ilə təmir etməyə başlamışdı. Damarlarından "mavi qan" axan qraf üçün bütün bunlar çox heyrətamiz idi. Hərçənd şübhə yoxdur ki, bu qayğıkeş dədəlikdən bir az da zövq alan Tolstoy kəndlilərin arasında olmaqla şəhərlərin ədəbi və aristokratik elitalarına bilərəkdən acıq verirdi. Tolstoy inanırdı ki, başqalarının həyatını şəxsən yaşamadan onların reallığını başa düşə bilməzsən.

### 3. Fərq yaradın

O həmçinin özünün məxsus olduğu ali silkin adamlarından, insanların iztirablarını şəxsi hərəkətlə azaltmaq xasiyyəti ilə fərqlənirdi. Buna ən parlaq misal onun aclıqla bağlı humanitar fəaliyyətidir. 1873-cü ilin məhsulsuzluğundan sonra Tolstoy "Anna Karenina" üzərində işi bir il təxirə salmışdı ki, aclıq çəkənlərə humanitar yardımı təşkil etsin. O, bir qohumuna belə yazırdı: "Mən xəyal edilən obrazların xətrinə özümü canlı məxluqlardan ayıra bilmərəm". Onun dostları və ailəsi düşünürdü ki, dünyanın ən gözəl romançılarından birinin öz şedevrlərinin biri üzərində işi yarımçıq qoyması divanəlikdir. O, 1891-ci ilin aclığı zamanı da belə etmişdi. Ömrünün iki ilini şorba mətbəxlərində işləməyə və aclar üçün pul toplamağa həsr etmişdi. Siz bu gün bestsellerlər yazan bir yazıçısının əlində olan işini humanitar fəaliyyət üçün iki il müddətinə bir kənara qoymasını təsəvvür edə bilərsinizmi?

### 4. Sadə həyat sənətinin ustadı

1870-ci illərin ruh qırıqlığından sonra Tolstoy pravoslav kilsəsi də daxil olmaqla bütün rəsmi dinləri inkar etmişdi. O, xristianlığın ruha və maddi gözütoxluğa söykənən inqilabi təriqətlərindən birini qəbul etmişdi. İçməyi, tütün çəkməyi tərgitmiş, vegetarian olmuşdu. O adamları özünü dolandıra bilən, ortaq mülkiyyətə sahib sadə utopik icmalar yaratmağa ilhamlandırmışdı. Bu sayaq "Tolstoy icmaları" bütün dünya boyunca yayılmışdı və Qandi 1910-cu ildə əsasını qoyduğu təkyəyə Tolstoy ferması adını vermişdi.

### 5. Öz ziddiyyətlərinizdən ehtiyatlı olun

Yeni, daha sadə həyat mübarizəsiz və ziddiyyətsiz deyildi. Tolstoy məlum olduğu kimi, bəşəri məhəbbətə sitayiş edirdi, amma arvadı ilə daim dava-dalaşdaydı. Digər tərəfdən bu bərabərlik həvarisi özünün varlı və imtiyazlı həyat tərzindən tamamilə əl çəkməmişdi. O, qoca yaşlarınadək çoxlu qulluqçuları olan böyük mülkdə yaşayırdı. Lakin 1890-cı illərdə o, ailəsinin arzusu xilafına olaraq öz ədəbi əsərlərinin böyük bir hissəsinin müəlliflik hüququndan əl çəkdi. Bununla o, əslində, böyük bir sərvəti qurban vermişdi. Əgər həyatının başlanğıcında malik olduğu imtiyazlar nəzərə alınarsa, bu şəxsi transformasiyaya yalnız heyran qalmaq olar.

### 6. Sənətkar olun

Tolstoy inanırdı ki, öz şüuru və vücudu arasında balans yaratmaq onun yaradıcılıq prosesinin mühüm şərtidir. O təkcə vaxtaşırı qələmini yerə qoyub çöl boyunca ata qoşulmuş kotan sürməzdi, həm də oraq-kərəntini yazı masası ilə üzbəüz divara söykəyərdi ki, həmişə gözünün qabağında olsun. Ömrünün son illərində yazıçılar və jurnalistlər bu saqqallı müdrikə baş çəkməyə gələndə, dünyanın ən məşhur yazıçısını əlində çəkməçi alətləri ilə ustalıq edən yerdə görüb təəccüblənərdilər. Əgər Tolstoy bu gün burda olsaydı, bizə məsləhət görərdi ki, boş vaxtımızın çoxunu sms və tvit göndərməyə sərf etməkdənsə, bir sənətin qulpundan yapışaq.

### 7. Sosial çevrənizi genişləndirin

Tolstoydan alınacaq ən mühüm həyat dərsi bunu anlamaqdır ki, güman və xurafatlarımıza üstün gəlməyin, habelə dünyagörüşümüzü inkişaf etdirməyin ən yaxşı yolu özümüzü baxışları və həyat tərzləri bizimkindən fərqli olan insanlarla əhatə etməkdir. O özünün "Dirilmə" əsərində göstərir ki, istər siyasətçi olsun, istərsə də biznesmen və ya oğru – adamların əksəriyyəti intstinktiv olaraq onların baxışlarını paylaşan insanların çevrəsini və bu çevrədə öz yerlərini qoruyub saxlamağa çalışırlar. Bizə oxşar insanlarla əhatə olunmağımız ona gətirib çıxara bilər ki, biz iki evə sahib olmağı, eyni cinsdən olanların evlənməsinə qarşı çıxmağı və ya Yaxın Şərq ölkələrini bombalamağı tamamilə normal və haqlı bir iş saya bilərik. Bu halda biz belə baxışların yanlış, ədalətsiz və ya həqiqətdən uzaq olduğunu görməyə bilərik, çünki öz çevrəmizə qapanıb qalmışıq. Tolstoyun təbirincə deyilsə, bizim ən əsas vəzifəmiz çevrənin hüdudlarını aşmaqdır.

Roman Krznaric "Sehirli mücrü: Həyat haqqında maraqlı tarixçələr" kitabının müəllifidir. Yeri gəlmişkən, elə bu məqalə də həmin kitabın materialı üzərində yazılıb. Yazıçı "Rəğbət" muzeyinin və "Rəğbət" kitabxanasının təsisçisidir.

# NAMAZIN ƏHƏMİYYƏTİ namazın özündə əks olunub



***İslam dinində namazın yeri xüsusidir. Namaz elə bir ibadətdir ki, insanı Allaha yaxınlaşdıra bilir, insanın dünya və axirət səadətinə çatmağını təmin edir.***

NAMAZ – dinin sütunudur və ona görə də böyük əhəmiyyətə malik olan bir ibadətdir. Namazın əhəmiyyətinə namazın elə özündə nəzər salaq.

Namaz, kiçik insanın böyük Allahla rabitə qurmasına səbəb olur. Namaz bəndənin ən ali ubudiyyətini nümayiş etdirər. İnsan namazda kəlamı, əməli, qəlbi, ruhu və pərəstişi ilə bəndə olduğunu nişan verər. Heç bir vacibatda namazda olan xüsusiyyətlər yoxdur. Namazın hər bir hissəsi insanın Allaha yaxınlaşmağından bəhs edər. (İslami saytlara istinadən).

**1. "Həmd" surəsi** – üsuliddini bəyan edər. Namazda "Həmd" surəsi oxunar ki, bir müsəlmanın etiqadi məsələlərini əhatə edər. Həzrət Peyğəmbərdən (s) nəql edilən hədisə görə isə "Həmd" surəsinin dəyəri və mətni Quranın bütün surələri ilə eyni ölçülür və eyni dəyərdədir. Yəni, bir "Həmd" surəsi dəyər baxımından Quranın bütün surələri ilə eyni ölçüdədir.

**2. Rüku. Rüku** – bəndəliyin ən gözəl nümayişidir. O kəslər Allaha yaxın olar ki, bəndəlikdə səhlənkarlıq və qüsur etməzlər. İmam Sadiq (ə) buyurur: "Namazın rükusunda ədəb vardır, səcdəsində qürb. Hər kim ədəbi yaxşı yerinə yetirməzsə, qürbə layiq deyildir".

**3. Səcdə.** Səcdə bəndənin Allah qarşısında zəlil olmasını nişan verər. Ubudiyyətin ən ali dərəcəsidir. Belə ki, insan öz səcdəsi ilə özünü varlıq aləmi ilə həmrəng edir. Quran buyurur ki, yerdə və göydə olanların hamısı Allaha səcdə edərlər.

**4. Təşəhhüd.** Təşəhhüd – Allahın təkliyinə şəhadət verib, Peyğəmbərin (s) risalətini təsdiq etməkdir. Tövhidi nübuvvətlə birləşdirərək, bizləri ubudiyyətə çatdırır. Həmd edərkən cəmin dili ilə ubudiyətimizi bəyan edirik. Ancaq təşəhhüddə fərdi olaraq bəndəliyimizi bildiririk. Bəlkə də ona görədir ki, hər kəs agahlıq və dərin etiqada malik olaraq, bu şəhadətləri deməlidir. Allahla və Peyğəmbərlə (s) olan beyətini bu şəhadətlə təzələməlidir.

# Əsrlər öncə psixoloji problem olan NARSİZMDƏN DANIŞAN HZ. ƏLİ (Ə)...

**Narsizm”- bu ifrat dərəcədə özünəvurğunluğu ifadə edən xarakter əlamətidir. Narsizm termini adətən şöhrətpərəstlik, özü haqqında yüksək fikirdə olma, eqoizm və ya sadəcə özünəvurğunluğun mənfi çalarlarını ifadə etmək üçün istifadə olunur. Biz hər birimiz bir qədər “narsistik”. Lakin əgər narsizm komponenti şəxsiyyəti əhəmiyyətli dərəcədə işğal edirsə, o zaman problemlər başlayır. Psixologiya və psixiatriyada ifrat narsizm hətta ciddi şəxsiyyət pozuntusu hesab olunur.**



***Yunan əfsanəsinə görə Narsist adlı bir gənc suda öz təsvirini görərək vurulmuş və öz gözəlliyinin tamaşasından ayrıla bilməyərək özünə qarşı sevgidən vəfat etmişdir. Məhz bu mif Freydi bu patologiyaya “narsizm” adı verməyə ruhlandırmışdır.***

Mütaliə vaxtı qarşıma maraqlı bir hədis çıxdı. Hz. Əlidən (ə) nəql olunan bu hədisin narsizmdən söz açdığını desək bəlkə də yanılmarıq. İmam (ə) buyurur:

İnsanın öz eyblərindən xəbərsiz olması (öz eyblərini görməməsi) onun ən böyük günahlarındandır. (Biharul-ənvar, c.74, səh,419)

İnsanın gördüyü hər bir işin bir ruhani və psixoloji mənşəyi var. Yəni onu həmin işi görməyə sövq edən onun ruh halı psixoloji durumudur. Məsələn biri qeybət edirsə, qeybət etdiyi şəxsə qarşı həsəd və kinindən qaynaqlanır. Haram gəlirdən çəkinməyən şəxsin bu işi dünyapərəst, pulgir və uzun-uzadı arzulara sahib olduğundan qaynaqlanır. Yaxud da qarşısındakını təhqir edən şəxsin bu işi onun təkəbbürlü, özünü qarşısındakından daha üstün hesab etməsindən qaynaqlanır. Əgər insan onu günaha sövq edən bu ruh halından və psixoloji qüsurundan xəbərdar olarsa, ondakı günaha və çirkinliklərə meyl kökündən çürüyər.

Görəsən insan niyə öz eyblərini görə bilmir? Başqasının gözündəki xırda çöpü görən adam öz gözündəki tiri niyə görmür axı?! Bunun səbəbi nədir?

Belə cavab verə bilərik ki, bunun mənşəyi insandakı özünə vurğunluq, özünü sevməsidir, narsizimdir. (Dini terminologiyada buna ( حب الذات) hubbuz-zat deyilir.

Əslində bu hal kontrol olunan miqdarda normal haldır. Çünki insanın özünümüdafiə mexanizminin əsas hissəsini təşkil edir. Lakin kontroldan çıxıb ifrat həddə çatdıqda insan narsizmə yoluxur. Və özünə ifrat məhəbbət onu öz eyb və nöqsanlarını görməyə mane olur. Əksinə eyblərini belə gözəllik və dəyər olaraq görməyə başlayır. Məsələn tənbəlliyini görmədikdə, deyəcək ki, özümə layiq iş yoxdur. (Yaxud da adam dindardırsa, bu halda özünü yalançı zahidliyə vuracaq). Danışıqda nəzakətsizliyinə, söyüş söyərək insanları təhqir etməsinə şücaət donu geydirəcək.

Nəticədə özünə vurğunluğu Narsiti həlak etdiyi kimi, özünə vurğunluğundan öz eyblərini görməmək də insanı həlak edir.

Bəhruz Camal



# UŞAQLARIMIZA MƏHƏBBƏTİ ÖYRƏDƏK, NİFRƏTİ DEYİL

**Bir insanın dərdinə şərik olmaq və dediklərinə qulaq asmaq onunla həmdərd olmaqdır. Bu xüsusiyyəti uşaqlıqdan öyrənmək lazımdır. O ailə ki, başqalarının hiss və həyəcanlarına qarşı laqeyddir - övladının həssas olmasını gözləməsin. Bu cür insanlar həmdərdlikdən söhbət düşəndə məntiqsiz cümlələr işlədərlər.**



***O valideynlər ki, cəmiyyətə sağlam övlad təhvil vermək istəyir, bilməlidirlər ki, həmdərdlik hissini övladlarına uşaqlıqdan aşılamaq lazımdır. Bəs valideyn nə etməlidir?***

Valideyn agahcasına bilməldiir ki, övladının 3 yaşı olandan sonra onu hiss və həyəcanlarla tanış etməlidir. Bunu oyun oynayaraq və ya kiçik tamaşalar təşkil edərək ona aşılamaq olar. Qəm, qəzəb, şadlıq, qorxu, nifrət kimi hisslərlə tanış etmək. Misal üçün əgər övladınız qızdırsa, onunla evcik oynayın. Sanki xalasının evinə qonaq gedir və gün ərzində baş verən hadisələr haqqında onunla danışır. Bu yolla övladının bu hisslərlə bağlı düşüncələrini öyrənir.

***O ailədə ki, böyüklər yalan danışar, uşaq qarşılıqlı anlaşmaqdan xəbərsiz olar.*** O zaman ki, anası gün ərzində baş verənlər haqqında rahat şəkildə atası ilə söhbət edə bilmir və ya övladı dostları ilə olan səmimi rabitəsindən valideynlərinə deyə bilmir, evin kiçik uşağının səmimi olmasını heç kəs gözləməsin. Çünki o da başqaları kimi öz həqiqi hisslərini gizlədəcək və başqasının hisslərinə məhəl qoymayacaqdır.

Yaxşı valideyn övladının hisslərini tanıyar və onu dilinə gətirər. Valideyn gərək övladının hisslərinə ən gözəl şəkildə reaksiya verə bilsin. Əgər övladı otağın küncündə əyləşib üzünü də turşudubsa, ondan bu halın səbəbini gərək mütləq soruşsun. Ona desin ki, balam, sənə nə olub? Sənə kömək etmək istəyirəm, ona görə də mənə nə baş verdiyini danış. Bu yolla uşağa həmdərd olduğunu bildirmək istəsin.

Övladınıza öyrədin ki, başqalarının köməyi ilə qarşılaşan zaman, onlara təşəkkür etsin. Təşəkkür etmək hissi hələ uşaqlıq dövründən ona aşılanmalıdır. Bu rəftar nəinki dildə, həm də əməldə özünü göstərməlidir. Belə ki, həyat yoldaşınız evə gələn zaman ona zəhmətlərinə görə təşəkkür edin və çalışın ki, bu sözləri uşağınız eşitsin və görsün.



***Başqalarının nəzərinə hörmət etmək də başqa məharətlərdən biridir ki, uşaq gərək öyrənsin.*** Valideyn gərək uşağını müxtəlif insanların nəzərləri ilə qarşılaşdırsın. Misal üçün ona deyin ki, sən rəsm çəkməyi sevmədiyin kimi, bacın da futbolu sevmir.

Uşaq öz valideynindən öyrənir ki, sevgisini necə büruzə versin və mənfi hisslərini necə göstərsin. Əgər valideyn ən kiçik məsələ ilə üzləşən zaman ah-nalə edər və bu zaman övladının verdiyi sualına cavab verməzsə və onu özündən uzaqlaşdırarsa, yaxşı örnək olmaz. Əgər əsəbisinizsə, bu zaman övladınıza deyin ki, mən bir qədər əsəbiyəm, yaxşı olar ki, bir neçə dəqiqə sonra səninlə söhbət edim.

# Ailəvi oxu metodikası



***Hər bir valideyn öz övladını savadlı,hörmətli, cəmiyyətdə öz yerini tutmuş bir şəxsiyyət olaraq görmək istəyir. Görəsən, bu arzunu həyata keçirəcək və uşağı xoşbəxt edəcək "sehirli çubuq" nədir? Cavab çox sadədir, bu "sehirli çubuq" uşağın oxuma bacarığı və oxumağa olan həvəsidir.***

Uşaq oxusu, hər bir ölkənin intellektual resursu, hər bir millətin insan potensialının inkişafı üçün ən ümdə bazadır. Oxu uşağın inkişafında, onun şəxsiyyətinin formalaşmasında ən vacib yeri tutan amillərdən biridir. Kitab uşağa düşünməyi öyrədir, onların təxəyyül bacarığını, nitq qabiliyyətini inkişaf etdirir, yaddaşını gücləndirir və dünyaya baxış bucağını genişləndirir. Kitab oxusu zamanı (istər fərdi formada oxuyarkən, istərsə də böyüklər onlar üçün oxuyan zaman) uşağın düşüncəsi daha aktiv fəaliyyətə başlayır, analiz etməyi öyrənir, (əsərdəki) hadisələri dəyərləndirir, özünü əsərin qəhrəmanları ilə müqayisə edir və s.

Müştərək (ailəvi) oxu zamanı isə böyüklərlə kiçiklərin yaxınlaşması, qarşılıqlı anlaşma, ailə ilə birlikdə keçirilən vaxt və mənəvi əlaqə uşaqda mərhəmət, fədakarlıq, sevgi və s. kimi səciyyəvi xarakterlərin formalaşmasına kömək edir.

Görkəmli novator-pedaqoq V.A. Suxomlinskiy (1918-1970) uşaq və yeniyetmələrin əqli bacarıqları, intellektual əməyi üzərində uzunmüddətli (35 il ərzində) və sistematik araşdırmalar aparmışdır. Onun "Beyni nə ilə müalicə etməli-düşüncə ilə, əməklə, yaradıcılıqla, yoxsa dərmanlarla?" adlı elmi işi ilk dəfə 2008-ci ildə çap edildi. Bu əsərdə onun "pavliş təcrübəsi" adlandırılan 35 illik uzunmüddətli araşdırmasının bəzi nəticələri barədə geniş söhbət açılır. Onun bu təcrübə zamanı gəldiyi qənaətlərdən biri budur ki, bacarıqsız uşaqların uğurlu tərbiyə olunmasında söz bazasının, poetik ifadələrin, nağıl və dastanların müstəsna rolu var. O belə hesab edirdi ki, hər bir azyaşlı uşaq 4 yaşına qədər sözün emosianal rəngini hiss etməlidir ki, bunu da ancaq xalq mahnılarından, nağıllardan, atalar sözlərindən, rəsm əsərlərindən duymaq olar.

Bu araşdırmalar zamanı əldə olunan başqa bir nəticə bundan ibarətdir ki, aşağı siniflərdə oxumağa və alınan informasiyanın emal edilməsi prossesinə az vaxt ayıran uşaqlarda beynin fəaliyyəti çox zəif olur. Həmçinin bu təcrübələr zamanı aparılan çoxsaylı müşahidələrdə məlum olub ki, yaddaş zəifliyinin, huşsuzluğun, əqli geriliyin, beynin funksional fəaliyyətinin aşağı olmasının arxasında dayanan amil uşağın (heç olmazsa, ömrünün ilk iki-üç ilində) tamamilə ana tərbiyəsindən məhrumluğudur. Pedaqoq inanır ki, dünyanı tanımaqda olan uşaq üçün emosianal idrak ananın ağuşundan, təbəssümündən, onun mehr-məhəbbət, qayğı dolu gözlərindən, üz ifadələrindən başlayır.

Suxomlinskiy ana müəlliməliyini əl dəyilməmiş, xam torpağa bənzədir və "analarımıza məhz bu pedaqoqikanı öyrətməliyik" deyirdi.

Müəllimlər, yazıçılar, ziyalılar arasında belə bir fikir formalaşıb ki, həyatdakı müvəffəqiyyət oxudan asılıdır. Bu fikri dəstəkləyənlərin arasında insan potensialının inkişafı institutunun təsisçisi, fizika sahəsində Nobel mükafatı lauryatı, akademik V.L.Qinzburq və Rusiyanın tanınmış psixoloqu L.S.Vıqotskiy də var. Yazıçı Fazil İskəndər özünün "Avtoritet" əsərində sözü gedən bu fikri çox gözəl canlandırıb. Əsərin qəhrəmanı olan fizik-alim Qeorqiy Andreyeviç inanırdı ki, onun fizika sahəsindəki nailiyyətlərinin oxuduğu sevimli kitablarla sirli və qeyri-adi bir bağlılığı var. "Fizika ilə məşğul olmaqla yanaşı o özünü oxu zamanı əldə etdiyi ilhamdan aldığı enerji ilə doldururdu. Axı, bu halın sevincini o hələ fizikadan öncə dadmışdı. Kitab oxumaq artıq bir vərdişə çevrilmişdi".

Qərbdə oxu və oxu təcrübəsi insanın bilik, intellekt, ünsiyyət bacarığı, yaradıcı şəxsiyyətin formalaşması üçün qoyulan kapital hesab edilir. Oxuyan insanlarda nitq daha yaxşı inkişaf edir, onlar daha müvəffəqiyyətli olur, cəmiyyət içərisində özlərini daha yaxşı ifadə etməyi bacarır və digərlərini yaxşı başa düşür.

ardı var...

Bəhruz Camal

# TƏNHALIQ GİRDABI

***Texnologiya inkişaf etdikcə insanlara fərdiləşmə diktə olunur.Hər kəs özəldir, xüsusidir kimi alt şüura xitab olunan reklam çarxları bütün günü televizorda modernizmin bizə pıçıldadığı sözlərdir.”Sən ən gözəlinə layiqsən” Sənin üçün yaratdıq “və s.***



Şəhərlər böyüdü, şəhərlər böyüdükcə paralel olaraq insanların sayı da artmağa başladı. Dahilərdən biri “Adamların sayı artdıqca, insanların sayının azaldığını görürəm”- deyə nigarançılığını bildirmişdi. Bu nigarançılıq məni bəşəriyyətin sonsuzluğa doğru yollanan yorğun ayaqlarından sallaşan dərdləri görməyə sövq edir. Bu dərdlərin ən böyüyü isə bəşəriyyəti öz girdabında boğmağa hazırlaşan tənhalıq girdabıdır.

***-Niyə bu qədər qələbəlik içində tək qalmışıq?***

***-Kimlər ya nələr buna zəmin hazırladı?***

***-Biz hara gedirik?***

***-Bütün bunların bir həll yolu varmı?***

Dünyaya kitab pəncərəsindən baxanlar tənhalığın ədəbiyyatda inkişafını müşahidə edə bilərlər. Bu tənhalıq İsgəndər Zülqerneynin əbədiyyət kəhrizini axtarmağa getməsindən, postmodernistin bohem həyatına qədər uzanır. Hissə-hissə, zərrə-zərrə ədəbiyyata çökən tənhalıq iztirabı son əsrlərdə öz pik nöqtəsinə çatdı. Bu əsrlərin tənhalığı Məcnunun çöllərdəki tənhalığı deyildi. Bu fiziki tənhalıq deyil.

Əvvəllər yalnız ədəbiyyatda mövzu olan bu məsələ indi cəmiyyət adlı gəmini batırmağa başlayıb. “Zəmanəmizin qəhrəmanı”nı mütaliə edən orada bir insanın özünə yer tapa bilməməsini 50 il öncə oxuyarkən bəlkə də təəccüblənərdi. Lakin indi bu qəhrəmanlar o qədər çoxalıblar ki, kütləvi şəkildə boşanmalar və intiharlar şəklində qarşımızda nəhəng bir tablo yarada bilirlər.

“Martin İden”in fəlakəti onun yazıçılığı deyildi. Onun daxilində dərinləşməyə başlayan bir girdab idi. Bu girdab onu son yolçuluğuna apardı. Gəmiyə minəndə elə ürəyindən keçdi ki, o sadə qızı özü ilə aparsın, amma apara bilmədi. Çünki o girdab onun əlindən cəsarətini-yaşamaq cəsarətini almışdı. Həyat rəngini itirmişdi onun üçün.

T.Drayzerin “Dahi”si Yucin cəmiyyətin zibilliyindən zirvəsinə və ya əksinə yuvarlanarkən o tənhalıq girdabının əlində can verərkən onu həyata yenidən nə qaytardı. Bu barədə sonra...

Tənhalıq sindromunu kimlər yaratdı və bunu insanlara kimlər yoluxdurdu? 50 il öncə “ürəyim sıxılır” “Həyat niyə bu qədər bezdiricidir?!” cümləsini quran əgər bir nəfər idisə, indi bu cümlənin cəmiyyətdə nə qədər sahibi tapılar. Xüsusilə gənclər arasında bu geniş şəkildə yayılıb. Bütün bunların məntiqi bir izahı vardır.

Bütün bunların izahı bizi modernizmin diktə etdiyi qloballıq siyasətinin bir parçasıdır. “Bəs əgər qloballaşma vahid bir mədəniyyəti təbliğ edirsə, bunun nəyi pisdir ki?” - deyə mənə etiraz edənlər də tapılacaq. Bəli, bütün hikmət cəmi bir kəlmə olan o qloballaşma sözünün içindədir. Biz bilirik ki, bəşəriyyət mövcud olandan bəri dünyada aparılan müharibələr tökülən qanlar iqtisadiyyat və qüdrət toqquşması ucbatından olub (təbii ki,söhbət işğalçı müharibələrdən gedir). Qloballaşma elə mədəniyyət formasını diktə edir ki, onun daşıyıcısı olan insana hər şeyi satmaq asan olsun. Məlum məsələdir ki, şərqdə yeyilən bir qida qərbdə yeyilə bilməz. Lakin 50 il sonra bütün bir vahid mədəniyyətə sahib bütün dünya yalnız bir qida sektoru və ya digər iqtisadi güclər tərəfindən idarə olunacaqsa niyə insanlar tədricən vahid bir mədəniyyətə tabe edilməsin?! Burada bir sual meydana çıxır: Axı bütün dünya vahid bir əldən idarə olunacaqsa bu günü-gündən artan insan kütləsini idarə etməyi necə bacaracaqlar? Və ən ümdəsi, indi bütün insanlığı sıxan bu tənhalıq sindromunun bununla nə əlaqəsi var?

Texnologiya inkişaf edir. Texnologiya inkişaf etdikcə insanlara fərdiləşmə diktə olunur. Hər kəs özəldir, xüsusidir kimi alt şüura xitab olunan reklam çarxları bütün günü televizorda modernizmin bizə pıçıldadığı sözlərdir:”**Sən ən gözəlinə layiqsən”, “Sənin üçün yaratdıq” və s. Sən. Bu insanı eqoizmə və mənmərkəzçiliyə götürən ən böyük yalanlardan biridir.**

Cəmiyyətə ilk addımını atan insan, onu böyük uğurların gözlədiyini və özünün xüsusi olduğuna inamla gəlir. Lakin bütün bu umduqlarının yerinə onu cəmiyyətdə reallıqlar - umduqlarının heç yarısı belə qarşılamır. İqtisadiyyatın psixoloji əsaslarının olması məsələsini yalnız bununla sübut edə bilərəm ki, Fukuyama iqtisadiyyat üzrə Nobel mükafatı alanda bəlkə də insanlar onun bir psixoloq olduğunu və iqtisadiyyatın

psixoloji əsasları barədə elmi əsərinə görə bu mükafatı aldığını bilmirdi. **İqtisadiyyatlarını birbaşa insanların psixologiyası üzərində quraraq bu gün dünya bazarında illərlə rəqabətə tab gətirən şirkətlər var. Bütün bunlar isə cəmiyyəti daxildən yoxsullaşdıraraq bir çox tənha insanların yaranmasına gətirib çıxardı.** Artıq özünün xüsusi olması barədə nağıllarla böyüyən insanın real dostları az, paylaşdığı informasiya azdır. O özünə qapanıb. Onun ən yaxşı dostu son texnologiya və o texnologiyanın gətirdiyi qeyri-real həyatdır. (Bu anda atalar və oğulların mübarizəsi başlasa belə bu mübarizədə körpü üzərində qarşılaşan iki keçi kimi hər iki tərəf bəri başdan uduzub). Bəziləri real həyatın ilk silləsindən yerə yıxılaraq intihar edər, digərləri yarımadam olaraq davam edərlər. Onlar çoxdu. Tənha bir şəkildə evlənərlər, ailələri olar, amma onların daxilində bir sakitlikləri olmaz. Ailə daxilində Don Kixotla Sança Panso kimi olarlar. Fiziki bir yaxınlıqla az qala dünyanı dolaşsalar belə hərə öz xəyalının hərə öz "dəyirmanı"nın arxasınca düşər.

Cəmiyyəti bu girdabdan necə xilas etmək olar sualının yalnız bir cavabı var: Qohumluq və dostluq. İslam dinində insana əmr olaraq bir qanun gəlib: sileyi-rəhm. Açması qohumluq əlaqəsidir. Qohumlarla əlaqə niyə bu qədər vacib olsun ki? İnsan nəyə görə belə etməlidir ki? Çünki insanı içindəki o dəhşətli girdabdan yalnız o üzünə qapı bağladığı insanlar xilas edə bilər. Paylaşmaq bölüşmək xilas edər. Mənim qələbəliyim insanlarla doludur deyən dahi o insanları yaxınları ilə əvəzləsəydi yeniyetmə tənhalığından qurtulmuş olardı.

Qayıdım Drayzerin "Dahi"si Yucinə. Bohem həyatın sərxoş etdiyi Yucin əllərini körpə qızına uzadan zaman anlayır ki, artıq həyat onun üçün dəyişib. Artıq o başqası üçün yaşamalıdır, mübarizə aparmalıdır. Yaşamağa artıq bir səbəbi vardır. Bəli yaşamağa səbəb, ölməyə səbəb olmalıdır. Səbəbsiz insan məhvə məhkumdur. Emil Zolyanın Suvarinin ("Germinal") belə səbəbi var idi o mədən quyuların partladanda....

Amma Kamyunun "Yad"-nın əlində heç bir əsas yox idi. O öldürəcək qədər tüfeyli, yaşayacaq qədər həvəssiz idi...

Ülviyya Tahir

# YUXU, YƏNİ QURTULUŞ

Bəzən yuxunun nə qədər böyük, şirin və cazibədar bir nemət olduğunu düşünürəm. Yuxu gələndə, "mən" yoxam. "Mən" olanda isə, yuxu yoxdur. Ölümə oxşar bir nəsnədir yuxu. Elə problem də buradadır. Yuxu bizi oğurlayır. Yuxu zamanı hamımız bizi özü ilə aparan karvanın əsirləriyik.

Yuxu bizimlə nə edir?

Yuxu "mən"i özümdən alır. Özüm boşalıram. Yatarkən, "mən" yoxam. Varam, amma başqa bir formada; elə bir formada ki, hətta təcrübə toruma belə düşmür. Mən sadəcə onu xatırlayıram ki, haradasa bir yataq üzərində, bir yerdə və ya bir divan üzərində uzanmışam. Ancaq əsla xatırlamıram ki, yuxuya gedərkən nə kimi bir təcrübə və necə bir hal yaşamışam. Sanki heç vaxt da yuxuya getdiyin o anı xatırlaya bilmərəm, çünki hər şeydən əvvəl, yuxu məni özümdən alır.

Yatarkən varam, amma iştiraksız, təcrübəsiz və özünüdərksiz olaraq. "Mən" yoxdur ki, nəsə bir təcrübə də yaşaya bilsin. Heç ortada bir təcrübəçi də yoxdur ki, nəyəsə məruz qala bilsin. Ona görə də "Mən yatmışdım",- deyə söyləməyim belə sanki iradsız deyil. Hansı "mən"? Əgər "mən" olsaydı, onda ortada hökmən iştirakçı və şüurlu bir varlıq var olmalı idi. Ancaq sükut arasında heç nə eşidilmir. Yuxu sirli bir sükutdur ki, hər şeyi durdurur, dondurur, hətta "mən"i belə. Yuxu gələndə "mən" sadəcə olaraq canlı bir orqanizm səviyyəsinə enir.

Yuxu bizimlə üç şey edir:

Birincisi, hər bir məsuliyyəti insanın üzərindən götürür. Yuxu burada məsuliyyətdən azad olmaq deməkdir.

İkincisi, hər bir ağrı və acını insandan uzaqlaşdırır. Yuxu burada dərddən qurtuluş deməkdir.

Üçüncüsü, hər cür dərki və daha önəmlisi, özünüdərki insandan alır. Yuxu burada dərkdən qurtuluş deməkdir.

Yuxu gəldikdə, hər cür məsuliyyət və öhdəlikdən azad oluram. Bütün öhdəlik və məsuliyyətlər bir qırağa çəkilir. Çünki əsas etibarilə "mən" yoxdur ki, bir subyekt kimi nəsə edib, nəyisə öhdəsinə ala bilsin. Bu o deməkdir ki, "mən"in olmadığı müstəvidə hər şey qüvvədən düşür. Hər şey böyük bir sükuta qərq olur. Varlıq durur. Yuxu müstəvisində İlahi əmrlər, hüquqi qanunlar, əxlaqi görəvlər və istənilən hər bir öhdəlik öz predmetini itirir. "Mən" olmadıqda, heç nə də yoxdur. Yatarkən, heç bir avtoritet güc tərəfindən mühakimə olunmuram. Cəhənnəm, mühakimə və zindan təkcə o zaman mənimlə əlaqəli ola bilir ki, mən yuxuda olmayım. Yuxuda olarkən Tanrı, hakimiyyət, cəmiyyət və əxlaq qarşısında daşıdığım ağır və dözülməz məsuliyyət yükündən yoxluq müstəvimdə azad oluram. Yuxu məsuliyyətsiz bir Cənnətdir, amma əfsuslar olsun ki, hər bir şeydən öncə, özü də unutqanlıq və qaranlığın qatlarında aradan getmişdir.

Acılar və ağrılar, nakam arzular, incidən xatirələr, talesiz istəklər və bizi sındıran hər bir şey yuxuda unudulur, əldən çıxır, məhv olur. Yuxu gəldikdə, insanın iç dünyasını dərin bir sükut bürüyür. Acıdan qurtuluş özündən qurtuluş deməkdir.

Nə qədər ki, oyağıq, hər bir şey bizə hücum edir. Yatan kimi hər şey bitir. Yuxu bizim hər bir şeydən, hətta özümüzdən belə azad olmağımızın ilk nöqtəsidir. Yaşamağın ağırlığı və acısı bitir. Var olduğumuza görə acı var, cavabdehlik var. Yuxu, yəni qurtuluş...

Beləcə yuxunun başlaması ilə hər bir şey sona yetir, ayıqlıq və özünüdərk ilə isə hər bir şey başlayır.

Dr. Əli Zamaniyan (Çevirən: Emin İmanlı)

# HƏZRƏT FATİMEYİ-ZƏHRA

## *Həqiqətən də Biz sənə kövsər əta etdik…*




Fatimə (s.ə) Zöhreyi-Zəhradır ki, ilahi əzəmətin nurundan yaranıb. Onun vücudu ilə səma və yer üzü nurlanmış, mələklər səcdəyə düşüb həzrət Haqqdan o nurun əzəməti haqqında soruşmuşlar.

Fatimə (s.ə) Həvrayi-insiyyədir (insan cildində bir hüriyyədir) ki, Allah Əbül-bəşər Adəmin (s.ə) xilqətindən öncə onu öz nurundan yaradıb, ərşin sütununun altında ona yer verib. Orada daim Allaha təsbih, təqdis, təhlil və təhmid etməklə məşğul olub.

Fatimə (əleya salam) elə böyük bir xanımdır ki, Allah-taala onun atasını, həyat yoldaşını, iki övladı- Həsən və Hüseynin (ə) nurunu yaratmış, onların vilayətini mələklərə və sair məxluqlara təqdim etmişdir. Qəbul edənlər Allahın müqərrəblərindən, inkar edənlər isə kafirlərdən hesab olunub.

Fatimə (s.ə) elə böyük bir xanımdır ki, Allah-taala onun, atasının, həyat yoldaşının, Həsən Hüseyn (s.ə) və digər övladlarının nuru, başqalarından - hətta nəbilərin övlayaların, övsiyaların nurundan öncə, şərəfli, üstün yaranmış, müqəddəs və qədimdir. Onların nuru səmaya, dağlara yayıldı və hər tərəfi bürüdü.

Fatimə (s.ə) seçilən böyük bir xanımdır ki, atası, həyat yoldaşı, iki övladı- Həsən və Hüseynlə (s.ə) Allahın ərşi altında həzrət Adəm xəlq olunmazdan öncə "Alin" məqamında Allaha təsbih etməklə məşğul olmuş və mələklər də onlara qoşulmuşlar.

Fatimə (s.ə) yeganə qızdır ki, atası Rəsulallah (s), Allaha ilk iman gətirən və ilk peyğəmbərdir ki, peyğəmbərlərdən əhd alındıqdan sonra "bəli" dedi: "Yaranmışların ilki və yaranan hər kəsin ağasıdır".

Allah-taala ondan yaxşısını yaratmayıb. Onun şənində buyurub: "Sən olmasaydın, dünyanı yaratmazdım".

Fatimə (s.ə) yeganə qızdır ki, Xədiceyi-Kübra əleyha-salam) kimi anası var. Həzrət Haqq dönə-dönə onunla mələklərin yanında fəxr edərdi. Peyğəmbər (s) Meracdan qayıtdıqdan sonra Cəbrayıl (ə) Allahın və özünün salamını ona çatdırardı. Allah-taala qadınlar arasında dörd nəfəri seçib ki, cənnət onlara müştaqdır. Xədicə (ələyha salam) də onlardan biridir.

Fatimə (s.ə) bir Seyyidədir ki, onun nütfəsi Cəbrailin (ə) Allah-taala tərəfindən Peyğəmbər üçün gətirdiyi hədiyyədən - behişt meyvəsindən bağlanıb.

Fatimə (s.ə) bir Mühəddisədir ki, anasının bətnində olanda anası Xədicə (s.ə) ilə danışardı, rəva olmayan sözlərin müqabilində onu səbrə və dözümə dəvət edər, sakitləşdirərdi...

Fatimə (s.ə) bir Tahirə və Mütəhhərədir ki, anası onu bətnində daşıyarkən cənnət qadınları və hurilər ona xidmət etdiyi halda dünyaya pak olaraq qədəm qoydu. Kəlmeyi-şəhadətə dil açdı. Həyat yoldaşının vəsi, övladlarının seyid (imam) olmasına şəhadət verdi. Onun cəlalının nuru təkcə Məkkəni deyil bütün şərq və qərbi bürüdü. Səmada parlaq bir nur yarandı ki, mələklər onun bənzərini görməmişdi. Cənnət əhli, mələkut aləmi onun doğumunu bir-birlərinə müjdə verdilər. Nəhayət cənnət qadınları onu Tahirə, Mütəhhərə və Zəkiyyə kimi onun və (onunla bərabər dünyaya gələcək) mübarək nəslinin qədəmini təbriklərlə alqışlayıb Xədicəyə təqdim etdilər.

O, hər gün hər ay adi şəkildə deyil, sürətlə böyüyürdü.

Fatimə (əleyha salam) yeganə xanımdır ki, Allah-taala ona Öz adlarından əta edib onu "Fatimə" adlandırdı. Dostlarına kömək edəcəyi üçün, göylərdə "Mənsurə", tərəfdarlarını oddan qurtaracağı üçün yerdə "Fatimə" adlanıb. Ona deyilən ləqəb və künyələrin hər biri öz yerində onun zahiri və batini kamalına işarədir.

Fatimə (s.ə) insan cildində bir Huri idi. Qadınlara xas olan (aylıq adət kimi) məsələlərdən pak olduğu üçün "Bətul" və ya "Tahirə" adlandı.

Rəsulallah (s) Fatiməyə (s.ə) elə bir şəkildə xüsusi diqqət yetirirdi ki, hər vaxt səfərə getsəydi, vidalaşdığı sonuncu, səfərdən qayıtdıqda ilk görüşdüyü şəxs Fatimə (ə.s) olardı. Həmişə onun dərdini çəkər, ondan nigaran idi. Allah-taala Fatiməni (ə.s) mənəvi əzəmətinə görə bütün qadınlar arasından seçdi. Onun elə bir sevimlisi oldu ki, həyatında və ölümündə onunla birgə olmaq və atasına, həyat yoldaşına, övladlarına salavat və rəhmət göndərməyi mələklərdən bir qrupuna tapşırdı.

Fatimə (s.ə) elə böyük bir şəxsiyyətdir ki, Cəbrayıl (ə) onun təvəllüdünü Rəsulallaha (s) müjdə verdi.

Fatimə(s.ə) Həvrayi-insiyyədir ki, Rəsulallah (s) hər zaman cənnətə müştaq olsaydı, onu iyləyər və buyurardı: "Tuba ağacının iyini ondan duyuram".

Fatimə (s.ə) İlahinin nurun cilvəsi, Onun cəlal və camalıdır. Onun qəzəbi Allahın qəzəbi, razılığı Onun razılığıdır. Rəsulallah (s) buyurub: "Onun nuru bizim nurumuzdandır". Həmçinin buyurub: "O məndən, mən də ondanam. Hər kəs ona salavat və rəhmət göndərsə, Allah-taala onu bağışlayar və cənnətdə mənə qovuşdurar."

# HƏZRƏT ZEYNƏBİ-KÜBRA

## *Zeynəb atanın zinəti deməkdir.*



***Həzrət Əli (ə) və Fatimeyi-Zəhra (s)-ın Həsən, Hüseyn, Zeynəb, Ümmi Gülsüm və Möhsin adlı beş övladı olmuşdur.***

***İmam Sadiq (ə)-dan rəvayət olunmuş hədisə əsasən həzrət Zəhranın son övladı olan Möhsin, İmamın düşmənlərinin o həzrətin evinə olan təcavüzü nəticəsində anasının bətnində öldürüldü, xanım özü isə ağır yaralanaraq şəhadətə yetişdi!***

***Bu xanədanın üçüncü övladı Zeynəb Hicrətin 6-cı ilində Mədinə şəhərində dünyaya göz açdı.***

ATANIN ZİNƏTİ

Zeynəb atanın zinəti deməkdir. Allah tərəfindən belə adlanan bu qız öz vəzifəsini yerinə yetirməklə tarixin zinəti və ailəsinin fəxri oldu. Odur ki, Zeynəb adı məhz onun fədakarlığı hesabına həmişə gözəl, müqəddəs və əbədidir. Bu vilayət dürrünün ad qoyma mərasimi haqda tarixdə belə oxuyuruq:

SƏMAVİ AD

Zeynəbi-Kubranın təvəllüdü zamanı həzrət Peyğəmbər (s) səfərdə olduğundan Fatimə Əlidən istədi ki, övladları üçün ad qoysun. Əli (ə) buyurdu: Mən atandan qabağa keçmərəm. Səbr edək Peyğəmbər (s) səfərdən gəlsin.

Peyğəmbər (s) səfərdən qayıtdıqdan sonra Əli (ə) Zəhranın uşağı olması xəbərini Peyğəmbərə çatdırıb, ondan uşaq üçün ad qoymasını xahiş etdi. Peyğəmbər (s) buyurdu: Fatimənin övladları mənim övladlarımdır, lakin onlar barəsində qərara gəlmək yalnız Allaha məxsusdur.

Ondan sonra Cəbrail nazil olub xəbər gətirdi ki, Allah buyurur: Bu qızın adını Zeynəb qoy! Çünki, Mən bu adı Lövhi-məhfuzda yazmışam. Bunu eşidən Peyğəmbər (s) Zeynəbi öpdü və buyurdu: Tövsiyə edirəm hamı bu qıza hörmət etsin. çünki, o, Xədiceyi-Kubra kimidir.

Yəni həzrət Xədicənin fədakarlıqları kimi, həzrət Zeynəbin Allah yolunda dözüm, səbr, şücaət və mübarizəsi İslamın əbədiliyi üçün xüsusi əhəmiyyətə malikdir.

ANASI FATİMƏ İLƏ GÖRÜŞ

Həzrəti Fatimə (s) atasından bir müddət sonra dünyasını dəyişdi. Buna əsasən, Zeynəb Zəhra kimi bir ananın məhəbbətindən yalnız bir neçə ilə bəhrələndi.

Bir neçə illik bu qısa müddət Zeynəbi Allah yolunda müsibət və çətinliklərə, cihad və mübarizəyə hazırlayan xatirələrlə doludur. Zeynəb Peyğəmbərin vəfatından sonra anası Fatiməni gülən və hətta təbəssüm edən halda da görmədi. Fatimə atasının ayrılığına o qədər ağlayıb ki, onun adını tarixin Adəm, Yəqub, Yusif və imam Səccad (ə) kimi ən çox ağlayanların sırasında qeyd etmişlər.

Zeynəb bütün bu vaxt ərzində anasının yanında olmuşdur. O, babasının müsibətli vəfat səhnələrini, anasının qəm-qüssələrini və düşmənlərin Əhli-beyt haqqında olan cinayətlərini görürdü. Bu mənfi hallar onun kiçik qəlbini incidir, o isə səbr edib dözür və sanki daha böyük müsibətlərə hazırlaşırdı.

İyirmi beş illik sükut və məzlumiyyət dövrü sona çatmışdır. Haqq və ədalətdən savayı fikri olmayan Əli (ə) camaatın təkidi ilə xilafət kürsüsünə əyləşib ümmətə rəhbərlik edirdi. Əlinin (ə) beş illik xilafəti Zeynəb üçün çox mühüm və maraqlı olmuşdur. Ədalətin bərqərar olduğu o dövrdə Əliyə müraciət edən, rəyasət və məqam eşqi ilə yanan dünyapərəstlərin çoxu onun qatı düşmənlərindən oldular. Onlar həzrət Əlinin (ə) buyurduğu bu ədalətli kəlamı eşitməyə qadir deyildilər: "And olsun Allaha! Osmanın haqsız olaraq müsəlmanların beytül-malından bağışladığı bütün hədiyyələri geri alacağam, hətta bu vəsaitlə izdivac etmiş və ya kəniz almış olsalar belə".






Onlar gördülər ki, Əli (ə) yoxsulluq ucbatından beytül-mala göz dikən qardaşı Əqilin bədəninə isti dəmiri yaxınlaşdırdı və onun naləsi qarşısında buyurdu: "Vay olsun sənə, Əqil! İnsanın qızdırdığı adi dəmirdən nalə edirsən, amma məni qəhhar Allahın öz qəzəbi ilə odladığı atəşə çəkirsən. Sən bundan nalə etdiyin halda, mən Cəhənnəm odundan qorxmayım?"

Həzrətin beytul-maldan bir boyunbağı əmanət almış qızına «Əgər bu boyunbağını beytül-maldan əmanət şəklində almasaydın oğurluq üstündə əli kəsilən ilk Haşimi qadın olacaqdın» - deyə buyurması onların xam-xəyalını alt-üst edirdi.

O, atasının məzlumiyyət günlərinin şahidi idi. O, Peyğəmbərdən (s) sonra atası ilə necə rəftar edildiyini, onun təyin olunduğu vilayətin necə qəsb olunub haqqı tapdalandığını yaxşı xatırlayırdı. Zalımlar xilafət başında oturub özlərini Peyğəmbərin (s) canişini adlandırdıqları halda, Əli (ə) İslamın qorunması və müsəlmanların məsləhətindən başqa bir şey düşünmür, iyirmi beş il səbr etməklə Allahın razılığını hər şeydən üstün tuturdu.

Bu dövrdə Zeynəb hadisələri diqqətlə izləyir, bir növ təcrübə toplayırdı. Çoxlarının mənsəbpərəstlik və həvəsbazlığını görüb, dostla düşməni tanıyır, Əbu Süfyan və Müaviyələrin iyrənc əməllərini və siyasi hoqqabazlıqlarını görür, zahirdə İslam libasına bürünüb, döşünə Allah nişanı taxan, əslində isə İslam və Əhli-beyti məhv etmək üçün plan cızıb həqiqəti əksinə göstərən mənfur sifətlərinin şahidi olurdu.

Zeynəb bütün bu haqsızlıqları görüb, atasının səbrinin böyüklüyünü anlayırdı. Atası belə demişdi: "Mən gözündə çöp, boğazında sümük qalmış bir adam kimi səbr edib dözdüm.

Zeynəb onun səbrindən ilham alıb fədakarlıq dərsini öyrənirdi. Öyrənirdi ki, necə Allah yolunda əzab və məhrumiyyətlərə dözüb şəxsi mənafeyini ilahi və islami mənafelərə qurban verməlidir.

KARVANDA MƏSULİYYƏT

Zeynəb karvan böyüklərindəndir və onun idarə olunmasında mühüm məsuliyyəti var. O, bütün hərəkət və qəmli səhnələrdə özünəməxsus vüqar və əzəməti ilə iştirak edir.

Zeynəb bütün çətinlik və müsibətlərdə özünü qardaşı Hüseynə şərik bilir. O, Zəhra yadigarıdır və elə bil, anasının əvəzinə Hüseyn və övladlarına gözlənilən müsibət və bəlalara hazır olur.

Doğrudan da onu Seyyidüş-şühəda hərəkatının ən böyük himayəçisi hesab etmək olar. O, bu işini imamla birgə və çiyin-çiyinə başlayıb iradə və təmkinliklə yerinə yetirirdi.

Tarixdə bəzi hərəkat, yol və səhnələrdə adının qeyd olunmasına baxmayaraq, cürətlə demək olar ki, Zeynəb onların hamısında fəal surətdə iştirak etmişdir. Karvanı idarə etməkdə onun imamla yaxın əlaqəsi, onunla fikri, ruhi və mənəvi əlaqəsi və öhdəsinə qoyulmuş böyük məsuliyyət bu həqiqətə əyani sübutdur.

O, Əhli-beyt və imam dostlarının qadın və uşaqlarının böyüyü idi. Tasua günü və ondan qabaqkı günlər baş verən hadisələr, imam Hüseyn (ə)-ın Zeynəblə söhbəti, onun bacısına Əhli-beyti himayə barəsində olan tövsiyələri açıq-aşkar onun karvanda olan məsuliyyətini göstərir.

Zeynəb imam Hüseyn (ə) sirlərinin məhrəmi və əmanətdarı idi, gərək qardaşının onun boynuna qoyduğu əmanət yükünü məqsədə çatdıraydı.

ZEYNƏBİN SÖZLƏRİNƏ BİR NEÇƏ İŞARƏ

Zeynəbin sözləri elə məntiqi və kəskin idi ki, heç kəsin onun qarşısında dayanmağa cürəti çatmadı. Zeynəbin sözlərinin qətiyyət və əhatəliyi Yezid kimi çirkin bir şəxsiyyətin bütün cəhətlərini göstərdi, Peyğəmbər və xanədanının böyüklük və kəramətini yada salıb, ilahi dəyərləri öz ziddlərindən ayırdı. Bu sözlərin mühüm məsələlərlə dolu olmasına baxmayaraq, burada o əbədi danışıqdan bir neçə mühüm məqama işarə edirik.

QARA QOVLUQ VƏ MURDARLIĞIN KÖKLƏRİ

Zeynəbin sözlərinin cəlbedici cəhətlərindən biri Yezidin qara qovluğunu və murdarlığın köklərini ifşa etməsidir.

Zeynəb Yezid xanədanının çirkinliklərini sayır və heç kəsin inkar etməyə qürdrəti çatmır. Ey Yezid, sən Hindin balasısan. Həmin qadın ki, Ühüd döyüşündə Allah Peyğəmbərinin şücaətli sərdarı Seyyidüş-şühəda Həmzənin ciyərini çeynəyib yerə atdı. Belə napak xanədandan Kərbəla faciəsindən başqa bir şey gözlənilmir.

Zeynəb başqa bir yerdə Yezidə «İbnit-tuləqa» "köləlikdən azad olunmuşların oğlu" – deyə xitab edirdi. Bu söz Məkkə şəhərinin fəthi və Qüreyş başçılarının azadlığına işarədir ki, uzun illər Peyğəmbərlə döyüşüb düşmənçilik etmişdilər. Peyğəmbər isə kəramətlə onları azad edib buyurdu:

«İzhəbu əntumut-tuləqa».

Yəni, "gedin siz hamınız azadsınız." Bəli Yezid Peyğəmbərin azad etdiklərinin balasıdır ki, indi Peyğəmbərin xanədanını əsir edibdir. Zeynəb bu sözlə Yezidə anlatdı ki, həqiqi əsir sənsən. nə bizim əsirliyimiz zillətimizə sübutdur, nə də sənin qüdrətin qələbə və kəramətinin nişanəsidir.

Zeynəbin sözlərinin bu hissəsindən sonra onun islam tarixindən geniş və dəqiq məlumatlı olduğu görünür...

قال رسول الله (ص)

لَيْسَ مِنّا مَنْ لَمْ يُوَقِّرِ الْكَبيرَ وَلَمْ يَرْحَم الصَّغيرَ

نهج الفصاحه حديث ٢٤١٦

## Bizdən deyildir

**Böyüyə hörmət göstərməyib, kiçiyə rəhm etməyən şəxs.**

Hz. Məhəmməd Peyğəmbər (s)

---

قال الرضا (ع)

لَيسَ مِنّا مَن تَرَکَ دُنیاهُ لِدینِه و دِینَهُ لِدُنیاهُ ؛

مستدرک الوسایل،ج٨،ص٢٢٣

## Bizdən deyildir

**Dünyasını dininə və dinini isə dünyasına görə tərk edən şəxs.**

Hz. İmam Rza (ə)

---

قال امامُ الصّادقُ (ع)

لَيسَ مِن شِيعَتِنا مَن قالَ بِلِسانِه و خالَفَنا فی أعمالِنا و آثارِنا

وسائل الشيعة جلد ١١صفحه ٩٦ ح ١٩.

## Bizdən deyildir

**Dildə bizim ardıcıllarımız olduğunu söyləyər, amma əməldə bizim rəftar və əməllərimizin əksinə əməl edənlər.**

Hz. İmam Sadiq (ə)

---

قال الكاظم (ع)

لَيسَ مِن شِيعَتِنا مَن قالَ بِلِسانِه و خالَفَنا فی أعمالِنا و آثارِنا

وسائل الشيعة جلد ١١صفحه ٩٦ ح ١٩.

## Bizdən deyildir

**Hər gün öz nəfsini (və əməlini) hesaba çəkməyən şəxs.**

Onlar əgər xeyir işlər görübsə Allaha şükr edib yaxşı əməllərinin artmasını istəyər, (gün ərzində) şərr iş görmüş olarlarsa tövbə edib bağışlanmaq istəyərlər.

Hz. İmam Kazim (ə)

---

قال رسول الله (ص)

لَيسَ مِنّا مَن لَم يَمِلكُ نَفسَهُ عِندَ غَضَبِه؛

کافی، ج٢، ص ٦٣٧، ح٢

## Bizdən deyildir

**Qəzəb zamanı özünü idarə edə bilməyən şəxs.**

Hz. Məhəmməd Peyğəmbər (s)

---

قال رسول الله (ص)

ليسَ مِنّا مَن تَشَبَّهَ بالرِّجالِ مِنَ النِّساءِ، و لا مَن تَشَبَّهَ بالنِّساءِ مِنَ الرِّجالِ

كنز العمّال: ٤١٢٣٧

## Bizdən deyildir

**Özünü kişiyə bənzədən qadın və özünü qadına oxşadan kişilər.**

Hz. Məhəmməd Peyğəmbər (s)

---

قال رسول الله (ص)

ليس منّا من غَشَّ مسلماً او ضَرَّهُ اَوْ ما كَرَهُ

عیون اخبار الرضا ،ج٢،ص

## Bizdən deyildir

**Biri ilə iş tutduğunda ona ziyan yetirən ya ona hiylə işlədən şəxs.**

Hz. Məhəmməd Peyğəmbər (s)

---

قال رسول الله (ص)

لَيسَ مِنَّا مَن يُحَقِّرُ الأمانَةَ حتّى يَستَهلِكَها إذَا استَودَعَها

بحار الأنوار، ج ٧١، ص ١٧٢

## Bizdən deyildir

**Əmanətə əhəmiyyət verməyib laqeyd yanaşan. Ona tapşırılanı aradan aparan.**

Hz. Məhəmməd Peyğəmbər (s)